www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10-11 dekabr 2016-cı il Şənbə № 275 (6596) Qiymәti 60 qəpik

Xəbər

**Nikaha girmək istəyən 10 minə yaxın şəxsdə talassemiya daşıyıcılığı aşkarlandı**

yazısı səh.10-da

Gündəm

**"FETÖ Eldar Mahmudovun bank hesabına ildə 1 milyon dollar köçürüb"-Türkiyə mediasından şok iddia**



AKP hakimiyyətinə yaxın "Ak gazete" "Gülən camaatı"nın Azərbaycandakı ən güclü dayağı kimi sabiq MTN şefini göstərib

yazısı səh.3-də

**Prezident Maliyyə Sabitliyi Şurasına 15 gün vaxt verdi**

yazısı səh.2-də

**Deputatların "müxalifətçi damarı"nın tutmasının səbəbləri...**

yazısı səh.12-də

**Müxalifət dirçələ biləcəkmi...**

yazısı səh.6-da

**Hərbçilərin təqaüd yaşını artırmaq təklifinə sərt reaksiya**

yazısı səh.4-də

**Həmsədr ölkələrin XİN başçılarından Bakı və İrəvana şifrəli mesaj**

yazısı səh.11-də

**Mənzillərimizi oğrulardan necə qoruyaq?**

yazısı səh.10-da

*Rejissor Elxan Cəfərov:*

**"Deməzdim ki, həyatımın Təhminəsi olub..."**

yazısı səh.13-də

**Daha bir Bakı sakini dəm qazından boğuldu**

yazısı səh.14-də

**Güclü külək Bakıda ticarət mərkəzinin damını uçurdu**

yazısı səh.14-də

**Yeni ilə özəl endirim, yoxsa artım kampaniyaları?**

yazısı səh.15-də

## Azərbaycanın xüsusi xidmətinin xüsusi hədəfi

# DTX-NİN REKET MƏTBUATA QARŞI ƏMƏLİYYATLARININ PƏRDƏARXASI - SENSASİON MƏLUMATLAR

Reket nəşrlərə pul və informasiyalar ötürən məmurların adları istintaqa məlumdur; dövlət içində MTN-in qurduğu böyük kompromat şəbəkəsi çökdürülür; reket mediaya "nəfəs vermiş" şəxslər barədə də sərt ölçü götürüləcək...




yazısı səh.4-də

## Azərbaycan yenidən diqqətdə və... hədəfdə - kritik həftə

İsrail baş nazirinin Bakı səfərinə sayılı günlər qaldı; amerikalı siyasi analitik bölgədəki durumu şərh edir; "İran böyük ölçüdə Ermənistanın tərəfini tutacaq..."

yazısı səh.7-də



*Yevda Abramov:*

**"Belə pis vaxtda öz vəsaitindən bir az xalq üçün xərcləyəndə nə olar?!"**

yazısı səh.5-də



*Əli Əliyev:*

**"Ayaz Mütəllibov müstəqil dövlətimizin imtiyazlarına layiq deyil"**

yazısı səh.6-da



*İqbal Ağazadə:*

**"Sadə vətəndaşların da içindən bir lider meydana çıxa bilər"**

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016



## Prezident Maliyyə Sabitliyi Şurasına 15 gün vaxt verdi

**Prezident İlham Əliyev Maliyyə Sabitliyi Şurasının üzvlərini toplayaraq, onlara tapşırıqlar verib. Bu barədə azvision.az-a millət vəkili Vahid Əhmədov bildirib. Deputatın sözlərinə görə, prezident Azərbaycanda maliyyə sabitliyinin bərpasını təmin edəcək tədbirlər planı hazırlamaq üçün Maliyyə Sabitliyi Şurasına 15 gün vaxt verib: "Şura çox çevik şəkildə həmin tədbirlər planı üzərində işləyir və bugünlərdə dövlət başçısına təqdim olunacaq".**

Deputat bildirib ki, valyuta bazarının stabilləşməsi vacib məsələdir. V.Əhmədovun sözlərinə görə, son günlər hüquq-mühafizə orqanları və Maliyyə Bazarlarına Nəzarət Palatasının rəhbərliyi tərəfindən "qara bazar"lara qarşı tədbirlər görülür.

"Son iki gündə "qara bazar" fəaliyyət göstərmirdi. Təkcə "qara bazar" deyil, elə bankların özləri də dollar satışını dayandırmışdı. Dünən hüquq-mühafizə orqanlarının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə bir yerdə apardığı əməliyyatlar mənim "qara bazar"a himayədarlıq edənlərlə bağlı parlamentdə söylədiklərimin əbəs olmadığını isbatladı. Bu adamlar faktiki olaraq "qara bazar"ı dollarla təmin edənlər idi. Ona görə də bütün günahkarlar cəzalanmalıdır. Yəqin ki, bu istiqamətdə hələ digər addımlar da atılacaq".

**Valyutadəyişmə məntəqələrinin yenidən bərpa olunmasına gəlincə, deputat qeyd edib ki, indiki şəraitdə bunların bərpasına ehtiyac yoxdur:** "Ölkədə fəaliyyət göstərən bankların filialları var və onlar valyutadəyişmə əməliyyatı həyata keçirirlər. Bankların normal işləməsi üçün elə şərait yaratmaq lazımdır ki, kifayət qədər valyuta olsun və istəyən şəxs öz valyutasını dəyişə bilsin. Bankların filiallarını böyük ticarət mərkəzlərində, təyyarə limanlarında artırmaq lazımdır ki, heç bir problem olmasın".



## Maşın 80 metr yuvarlandı, sürücü öldü

**Yol terroru bu dəfə Zaqatalada can alıb. ARB Şəki xəbər verir ki, baş verən qəzada sürücü həyatını itirib. Hadisə Zaqatala-Danaçı-Aşağı Çardaqlar avtomobil yolunda baş verib. Rayonun Danaçı kənd sakini, 1988-ci il təvəllüdlü Cəfər İbrahim oğlu Murtuzov idarə etdiyi "KİA Serato" markalı 90 RC 102 dövlət nömrə nişanlı minik avtomobili ilə hərəkətdə olarkən idarəetməni itirməsi səbəbindən maşını aşırıb. Avtomobil 80 metrə qədər məsafəyə yuvarlanıb. Nəticədə sürücü Cəfər Murtuzov aldığı ağır bədən xəsarətlərindən hadisə yerindəcə dünyasını dəyişib.**

Faktla bağlı Zaqatala Rayon Polis Şöbəsində araşdırma aparılır.


### "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**


# Hökumət 500 milyonluq kredit ala bildi - kim qaytaracaq?

### Ekspertlər ciddi borc yükünün gələcək nəsillərin üzərinə yüklənməsindən narahatdırlar...

**Azərbaycan hökuməti uzun müddətdir ki, borc axtarışındadır. Son olaraq Asiya İnkişaf Bankı (ADB) Azərbaycan iqtisadiyyatının diversifikasiyası üçün 500 milyon ABŞ dolları məbləğində kredit ayırıb. Bu vəsait həm də yeni iş yerlərinin açılması üçün xərclənəcək.**



Bankın açıqlamasında deyilir ki, bu, hökumətin 1,4 milyard dollarlıq iqtisadiyyatın təşviqi paketinin genişlənməsinə səbəb olacaq. Kredit ümumilikdə 3,7 milyon insanın, yaxud əhalinin 1/3-dən çoxunun sosial problemlərinin həllinə dəstək verəcək. Həmçinin ADB Azərbaycanda makrofiskal islahatları dəstəkləmək üçün texniki yardım qismində 1,2 milyon dollar ayırıb. "ADB Azərbaycanda dayanıqlı inkişafı dəstəkləyəcək və onun uzunmüddətli olmasına yardım edəcək", - deyə bankın baş direktoru Şon Sallivan deyib.

**Ekspert Rövşən Ağayev bildirib ki, 2017-ci ildə yalnız infrastruktur layihələrini həyata keçirmək üçün hökumət zəmanəti ilə təxminən 2 milyard manatdan bir az çox, 1,3 milyard dollara yaxın xarici kreditlər alınacaq:** "Bu kreditlərin bir hissəsi büdcə, yerdə qalan hissəsi iri dövlət şirkətləri vasitəsilə xərclənəcək. Əlavə olaraq, dövlət büdcəsi vasitəsilə investisiya layihələrinə 2.5 milyard manat xərclənəcəyi planlanır".

**Onun sözlərinə görə, büdcənin investisiya xərclərinin təxminən yarısı 5 təşkilat arasında bölünəcək:** "Neft Şirkəti 612,2 milyon manat, "Azəravtoyol" 290,4 milyon, Dəmir Yolu İdarəsi 130 milyon, Nəqliyyat Nazirliyi 100 milyon, "Azərsu" 95 milyon manat büdcə investisiyası alacaq. Büdcənin ən böyük sərmayə istiqamətlərindən biri pambıqçılıq olacaq-təxminən 300 milyon manat. Həmin vəsaitin 200 milyon manatı bilavasitə pambıqçılıqla bağlı texnikanın alınmasına, yerdə qalan hissəsi əkin infrastrukturunun qurulmasına sərf ediləcək. Əslində çox doğru olardı ki, bu qədər büdcə vəsaitinin ayrıldığı istiqamət üzrə parlamentə əsaslandırılmış proqram təqdim ediləydi. Qısa müddətdə, büdcə məhdudiyyətlərinin kəskinləşdiyi bir dövrdə bu qədər sərmayənin iqtisadi nəticələri necə olacaq, burda hansısa risklər varmı, varsa onu önləmək üçün hansı önləyici tədbir və mexanizmlər işlənib hazırlanıb? Beynəlxalq Bankın 2 milyard dollar yönəltdiyi investisiya layihələri məhz belə şəffaf və əsaslandırılmış yanaşmaların olmadığına görə iflas etmədimi?"

**Ekspert Natiq Cəfərli isə musavat.com-a alınan kreditlərin qaytarılması ilə bağlı narahatlığını bildirib:** "Burada kredit götürən dövlətdir, dövlət bu kreditlərin qaytarılacağına zəmanət verir. Sabah bu hökumət krediti qaytara bilməyəcəksə, bundan sonrakı hökumət, yeni ümumilikdə dövlət o borcları qaytarmağa məcburdur. Yeni indki Azərbaycan hökumətinin atdığı addımlar yalnız vəziyyətdən qısa müddətdə çıxmağa hesablanıb. Gələcək nəsillərin üzərinə borc yükü qoyulur və hökumət bu haqda düşünmür".

❑ **RÖYA**

## AZAL-ın Dubaya reyslərində xüsusi təklif

**"Azərbaycan Hava Yolları" (AZAL) Bakıdan Dubay istiqamətində olan uçuşlara yeni aksiya elan edir.**

Bakı-Dubay-Bakı istiqamətində axşam reyslərinə (J2 015/J2 016) dekabrın 15-ə kimi olan uçuşlara aviabilet alarkən aviabiletin qiyməti cəmi 149 avro təşkil edəcək. Qiymətə bütün rüsum və yığımlar daxildir.

Həmçinin aviabiletin qiymətinə baqajın (23 kq-a kimi) pulsuz daşınması, soyuq və isti yeməklərin tam çeşidi daxildir.

AZAL-ın Bakıdan Dubaya uçuşları hər gün komfortlu Airbus A319 və A320 laynerləri ilə həyata keçirilir.

Aviabiletləri şirkətin www.azal.az ttp://www.azal.az saytında bronlaşdırmaq, AZAL-ın kassalarında və rəsmi agentliklərdən əldə etmək mümkündür. Reys çərçivəsində AZAL Miles bonus proqramından istifadə etmək mümkündür.

AZAL Miles bonus proqramı haqqında ətraflı məlumat aviaşirkətin rəsmi internet saytında verilmişdir: www.miles.azal.az Proqram iştirakçısı olmayan şəxslər aşağıdakı link vasitəsilə qeydiyyatdan keçə bilər: http://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=az ttp://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=ru

AZAL Miles bonus proqramı ilə bağlı sualları ya azalmiles@azal.az ailto:azalmiles@azal.az email ünvanına və ya www.azal.az saytındakı əlaqə forması vasitəsilə göndərmək olar.

Aviabiletləri əldə etmək və daha ətraflı məlumat almaq üçün aşağıdakı telefon nömrələri ilə əlaqə saxlaya bilərsiniz:

(+99412) 598 88 80; *8880

E-mail: callcenter@azal.az ailto:callcenter@azal.az

## Dolların məzənnəsi dekabrın 13-dək 1.74 manat olacaq

**Azərbaycan Mərkəzi Bankı (AMB) dekabrın 12-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi dekabrın 9-u ilə müqayisədə dəyişməyərək 1,7430 səviyyəsində müəyyən olunub.

## Azərbaycanda kommunal xidmətlər sahəsinə özəl şirkətlər cəlb edilə bilər

**Azərbaycanda kommunal xidmətlər sahəsində səmərəliliyin və keyfiyyət səviyyəsinin təmin edilməsi məqsədilə özəl sektorun iştirakı nəzərdən keçirilə bilər.**

APA-nın məlumatına görə, bu barədə Azərbaycanın milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində deyilir.

"Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd edildiyi kimi, dəyər zənciri üzrə elektrik enerjisinin istehsalının, ötürülməsinin, paylanmasının və satışının bir-birindən ayrılması və liberallaşdırılması dünya təcrübəsində artıq sınaqdan keçirilib. Bu təcrübə göstərir ki, elektrik enerjisi sektorunun liberallaşdırılması müxtəlif yollarla, o cümlədən 1) "Tik-idarə et-təhvil ver" (TİT modeli); 2) tam özəlləşdirmə; 3) idarəetməyə verilmə; 4) açıq tipli səhmdar cəmiyyətinə çevrilmə və ya 5) konsessiya müqaviləsi əsasında reallaşır. Bu sektorda özəlləşdirmə əsasən istehsal (strateji obyektlər istisna olmaqla) və satış sferalarını əhatə edə bilər.

## Azərbaycan tam üzən məzənnə rejiminə keçidə hazırlaşır

**Tam üzən məzənnə rejiminə keçid həyata keçirilməlidir və bu baxımdan, ilk növbədə yaxın və ortamüddətli dövrdə məzənnə siyasətinin əsas strateji hədəfi kimi idxalın əvəzlənməsi siyasətinin dəstəklənməsi prioritet seçilə bilər. "APA-Economics" xəbər verir ki, bu barədə Azərbaycanın milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qeyd edilib.**

Sənəddə qeyd edilib ki, qlobal əmtəə bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsinin Azərbaycanın xarici və daxili iqtisadi balansına neqativ təsirlərini minimuma endirmək, ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, həmçinin ölkənin malik olduğu xarici valyuta ehtiyatlarının bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyətinin 2015-ci il 21 dekabr tarixli qərarı ilə sabit məzənnə rejimindən imtina edilib, üzən-tənzimlənən məzənnə rejiminin tətbiqinə başlanılıb.

"Tam üzən məzənnə rejiminin tətbiqinə nail olmaq üçün ilk növbədə yaxın və ortamüddətli dövrdə hazırda tətbiq edilən üzən-tənzimlənən məzənnə rejiminin məzmununun bir daha dəqiqləşdirilməsi vacibdir. Məhz istehlak səbətində idxal məhsullarının payının azaldılmasına nail olma səviyyəsinə uyğun şəkildə məzənnə üçün faktiki tətbiq edilən dəhlizin genişləndirilməsi, ortamüddətli dövrdə isə tamamilə ləğv edilməsi üzən rejimə səmərəli keçidi təmin edəcək. Üzən məzənnə rejiminə keçidin şərtlərindən biri də daxili maliyyə bazarının inkişafına, bazarda hedcinq və məzənnə risklərindən sığortalanmağa imkan verən digər maliyyə alətlərinin təqdim edilməsinə nail olmaqdır", - deyə sənəddə qeyd edilib.

Bundan əlavə, AMB-nin valyuta bazarına müdaxilə strategiyasının hazırlanması və onun maliyyə bazarı iştirakçılarına səmərəli şəkildə kommunikasiya edilməsinin təmin olunması istiqamətində tədbirlər nəzərdən keçiriləcək.

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016

# “FETÖ Eldar Mahmudovun bank hesabına ildə 1 milyon dollar köçürüb” - Türkiyə mediasından şok iddia

## AKP hakimiyyətinə yaxın “Ak gazete” “Gülən camaatı”nın Azərbaycandakı ən güclü dayağı kimi sabiq MTN şefini göstərib

**Türkiyədə hakimiyyətə yaxın “Ak gazete” saytı "Gülən camaatı"nın (FETÖ) Azərbaycandakı dayaqları haqda araşdırma yazı yayımlayıb. Yazıda FETÖ-nün Türkiyədən sonra ən güclü dayaqlarının Azərbaycanda olduğu və ləğv edilmiş MTN-in sabiq şefi Eldar Mahmudovla əlaqələrindən danışılır. Hakim partiya və kəşfiyyat dairələrinə yaxın media orqanı hesab olunan qəzetin “FETÖ-nün Azərbaycanı addım-addım ələ keçirmə planı” başlıqlı yazı sensasion məlumatlarla zəngindir.**

Qeyd edək ki, 15 iyul çevrilişindən sonra Türkiyə mediası xarici ölkələrdə, xüsusən də türkdilli respublikalardakı Fətullahçı strukturlardan yazmağa başladı. Bu əsnada əsas diqqət mərkəzində olan ölkələrdən biri də Azərbaycan oldu.

***

Yazıda qeyd olunur ki, Ankara 15 iyul qiyamından sonra Gülən camaatının xarici ölkələrdəki bağları, çevriliş etmək təhlükəsi barədə narahatlığını bildirib. Bu sırada ən başda olan ölkələrdən biri də Qırğızıstan göstərilib. Belə ki, SSRİ-nin dağılmasından sonra yeni müstəqil respublikalarda, xüsusən də türkdilli ölkələrdə yerləşən “Gülən camaatı” bu ölkələrdə öz kadrlarını yetişdirməklə yanaşı, digər tərəfdən də öz tabanından olmayan, lakin dövlətin önəmli postlarını tutan şəxsləri rüşvətlə öz tərəfinə çəkərək mühüm dövlət qurumlarına nəzarət imkanları əldə edib.

**Yazıda “Qeyri-müqəddəs ittifaq” adlı yarımbaşlıqda deyilir:**

“Bu cəhətdən ”Gülən camaatı"nın türkdilli respublikalarda həyata keçirdiyi “insan ovu” taktikası Türkiyədəkindən fərqli olsa da, son məqsəd eyni hədəfə xidmət edib. “Camaat” tərəfindən ələ alınan bu kadrların son məqsədi-xüsusən də “Ərəb baharı”ndan sonra-örgütün “Üst ağlı”nın İslam dünyasında geniş yaydığı “idarə olunan xaos” layihəsində “Troya atı” rolunu oynamaq olmuşdur".

Türk respublikalarındakı “camaat” təşkilatlanması strategiyasını daha yaxşı anlamaq üçün geniş tədqiqat aparmış yazı müəllifləri Azərbaycandakı fəaliyyətilə bağlı, lakin ilk görünüşdə bir-birilə əlaqəsi olmayan iki kritik hadisənin analizini aparıblar. Birinci hadisə 2014-cü ildə Türkiyənin ovaxtkı baş nazir Rəcəb Tayyib Ərdoğanın Bakı səfərindən sonra Azərbaycanda FETÖ ilə mübarizə çərçivəsində bir sıra addımların atılması, ikincisi isə 2015-ci ilin oktyabrında milli təhlükəsizlik naziri Eldar Mahmudovun vəzifəsindən çıxarılmasından sonra nazirlikdə cinayətkar qrupun zərərsizləşdirilməsidir. Mahmudov qrupunun kaset şantajı, qeyru-qanuni dinləmələr, iş adamlarından şantajla malların qəsb edilməsi kimi əməlləri ilə FETÖ-nün Türkiyədəki fəaliyyətləri arasında bənzərliyin olduğunu yazan məqalə müəllifləri bu 2 qrupun arasındakı bağlantını ortaya qoyublar.

**FETÖ təhlükəsizlik şefinin atasına nədən heykəl qoydu?**

Yazıda qeyd olunur ki, ilk baxışdan çox təəccüblü görünən və uzun illər gizli qalan MTN-FETÖ əlaqələri ilk dəfə Eldar Mahmudov vəzifədən çıxarıldıqdan sonra aşkarlanıb. Belə ki, poliqon.az saytında yayımlanan ""Zaman" qəzeti Eldar Mahmudovu müdafiəyə qalxdı” başlıqlı bir xəbər qəzetin diqqətini çəkərək bu sahədə araşdırmaya təkan vermiş olub. “Camaat” mediasının aparıcı orqanı olan “Zaman” qəzetinin həmin yazısı “gedənin arxasınca danışmazlar” məntiqi ilə çıxış edərək Mahmudovu müdafiə edirdi. Sonrakı araşdırmalardan məlum olub ki, Naxçıvanda Gülən liseylərindən birinə Eldar Mahmudovun atasının adı verilib və hətta heykəli də qoyulub, lisey məzunlarının tədbirləri də bu heykəlin önündə keçirilib. Yazıda qeyd olunur ki, həmin vaxt az qala bütün Azərbaycan mətbuatı Mahmudovun korrupsiya və cinayətlərindən yazdığı halda, Gülən mediasının onu müdafiə etməsi, “camaat” liseylərindən birinə onun atasının adını verib heykəlini ucaltmasının arxasında önəmli bir səbəbin dayandığı aydındır.






**“Azərbaycan hakimiyyətinə qarşı ABŞ tərəfindən ciddi təzyiqlərin olduğu 2015-ci ilin ikinci yarısına təsadüf edən Mahmudovun çevriliş planında onunla əməkdaşlıq etmiş Amerika mənşəli FETÖ-nün rolu indi də sual doğurur. Əcəba, bu, 15 iyulun bir məşqi idimi?”**



**FETÖ - Mahmudov əməkdaşlığı**

Qəzet yazır ki, “Gülən camaatı”nın Mahmudovla əməkdaşlığı sonuncunun nazir təyinatının ilk illərinə, daha dəqiqi, 2006-cı ilə təsadüf edir. 2006-cı ildə MTN Göyçayda “nur tələbələri” (klassik nurçular - red.) adlı qrupa qarşı əməliyyat keçirib və bu, “Gülən camaatı”nı hərəkətə gətirib. Məhz bu hadisədən sonra Gülən qrupu Azərbaycanda daxili və xarici təhdidlərlə mübarizəyə məsuliyyət daşıyan, xüsusən də dini sahədə təhlükəsizliyə cavabdeh olan bu dövlət qurumunun özlərinə qarşı mümkün təhdidə çevrilməməsi üçün fəaliyyətə başlayıb.

Mahmudovun pula hərisliyini təsbit edən FETÖ rüşvət metodundan yararlanıb. Gülən örgütü ilk illərdə Mahmudovun xarici bank hesablarına ildə 1 milyon dollar ödəyib, sonrakı illərdə isə həm də MTN şefinin Türkiyədəki biznes fəaliyyətlərinə də dəstək olub. Məhz bu “qeyri-müqəddəs” ittifaq” nəticəsində MTN gülənçilərin Azərbaycanda fəaliyyətinə şərait yaratmış, onları ifşadan qorumuş və ən önəmlisi, bu qrupun düşmənlərini sıradan çıxarmışdır. MTN-in sabiq rəhbəri 2006-cı ildən sonra “nurçulara” qarşı geniş mübarizədən dəm vursa da, 10 ilə yaxın bir müddətdə “camaat” şirkətinə və ya nümayəndəsinə qarşı əməliyyat keçirilməyib, tam əksinə, onlara manea olanları “təmizləyib”.

**Gülən düşmənləri “Gülənçi” kimi şərlənib**

Müəllif yazır ki, 2014-cü ildə Türkiyə hakimiyyətinin xahişi ilə Azərbaycan rəhbərliyi ölkədəki FETÖ qruplarını ifşa edərək “təmizləməyə” qərar verir. Bu işi isə aydın məsələdir ki, ovaxtkı MTN rəhbərliyi - yəni elə Gülənin himayədarı həyata keçirməli idi. 2014-cü ilin aprelində MTN Azərbaycandakı “nur tələbələrinin” söhbət evlərinə ardıcıl əməliyyatlar təşkil edib, çoxlu sayda insan saxlanılıb. Azərbaycan cəmiyyətində “nurçular” ( klassik nurçular) və “gülənçilər” arasında fərq o qədər də aydın bilinmədiyi üçün MTN gülənçi adı ilə nurçuları həbs edirdi. Məsələn, MTN-in həbs etdiyi “Fırıncı Abi” və ya başqa adı ilə “Mustafa Sunqur camaatı” nurçu qrupunun üzvləri FETÖ-çü kimi təqdim olunurdu. Əslində isə həbs olunan Türkiyə vətəndaşları Mehmet Nuri Güleç Koçoğlu, Kadir Uyar, Mustafa Kemal Uyar və Nurettin Karagözoğlu uzun illər “Gülən camaatı”na qarşı mübarizə aparmış insanlar idi. “Star” qəzetinin yaydığı məlumata görə, hətta onların Türkiyədəki liderləri 17-25 dekabr əməliyyatlarından sonra Gülənə qarşı birgə bəyanat yaydıqları üçün FETÖ tərəfindən ölümlə hədələnib və 1 il içində müəmmalı şəkildə "camaat"a məxsus klinikalarda infarktdan dünyalarını dəyişiblər.

Qəzetin yazdığına görə, “camaat”ın Türkiyə qolu bu taktikadan uzun müddət öz rəqiblərinə qarşı istifadə edib. “Camaat”a əslində düşmən olanları “camaatçı” adı ilə təqdim etməklə yem kimi istifadə edib. 2014-də isə eyni taktika Azərbaycanda da aparılıb.

**FETÖ-yə qarşı olan iş adamları da şərlənib**

Yazıda daha bir maraqlı məqam isə 2014-də Azərbaycandan Mahmudov qrupu tərəfindən “gülənçi”adı ilə deportasiya olunan türk iş adamlarının əslində “camaatçı” deyil, əksinə, AKP-ya yaxın insanlar olmasıdır. Qəzetin iddiasına görə, məhz MTN-in sabiq rəhbərliyinin əli ilə “camaatçı” adı ilə bəzi iş adamları ölkədən çıxarılıb. Belə adamlardan biri isə 2010-cu ildən Azərbaycanda “Azərsu” dövlət şirkətinin iri layihəsinin həyata keçirilməsində məsləhətçi qismində işləmiş, daha əvvəl Türkiyədə su təsərrüfatında mühüm vəzifələrdə çalışmış, İstanbul Esenler bələdiyyəsinin hazırkı AKP-li sədrinin yaxın qohumu olan Tevfik Göksu olub. Belə ki, yaxın ətrafında Gülən düşmanlığı ilə tanınan Göksu 2014-cü ildə MTN tərəfindən “gülənçi” damğası ilə ölkədən deportasiya edilib.

**Bakıdakı həbslər 15 iyulun məşqi idi?**

Qəzet yazır ki, E.Mahmudov vəzifəsindən çıxarıldıqdan sonra MTN-də böyük əməliyyat keçirilmiş və nazirlikdə çoxsaylı yüksək rütbəli məmurların həbsi ilə yanaşı, Azərbaycanın ən böyük bankı olan Beynəlxalq Bankdan 5 ildə 10 milyard dolların yoxa çıxdığı aşkarlanıb. Bankın rəhbəri Cahangir Hacıyev isə Mahmudovun qudasıdır. Ekspertlərə görə isə bu qədər pulun oğurlanmasında Cahangir Hacıyevə qudası Mahmudov dəstək verib. O da iddia olunur ki, Mahmudovun son hədəfi ölkədə dini və siyasi müxalifətdən istifadə edərək çaxnaşma yaratmaq, çevriliş həyata keçirərək, bu mərhələdə yoxa çıxan 10 milyard dolları ört-basdır etmək olmuşdur. Bu plandan vaxtında xəbər tutan Azərbaycan prezidenti İlham Əliyev isə Mahmudovu vəzifədən uzaqlaşdıraraq böyük bir əməliyyat keçirməklə planı ifşa edib. Yazı müəllifinin təhlilinə görə, bu əməliyyat zamanı Azərbaycanda bir həftə ərzində təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və MTN-in ləğv edilərək yerində iki qurumun yaradılması təhlükənin miqyasını göstərir.

Qəzetə görə, Azərbaycan hakimiyyətinə qarşı ABŞ tərəfindən ciddi təzyiqlərin olduğu 2015-ci ilin ikinci yarısına təsadüf edən Mahmudovun çevriliş planında onunla əməkdaşlıq etmiş Amerika mənşəli FETÖ-nün rolu indi də sual doğurur. Əcəba, bu, 15 iyulun bir məşqi idimi?

Qəzetin iddiasına görə, prezident İlham Əliyevin qabaqlayıcı tədbirləri nəticəsində “camaat”ın Azərbaycandakı dəstəkçisi ifşa olunaraq təmizləndi. Hətta FETÖ-Mahmudov xəyanətinin simvolu olan ata Mahmudovun Naxçıvandakı liseyinin önündəki heykəli də səssizcə dağıdıldı. Bununla da “camaat”ın bir nazirlikdəki təsiri sıradan çıxarıldı. Lakin oxşar vəziyyət başqa ölkələrdə də var və bu ölkələrin də 15 iyul çevrilişindən lazımi dərslər çıxararaq, tədbirlər görməleri gərəkdir.

Qeyd edək ki, hələ ötən il mətbuat Mahmudovun MTN-dəki fəaliyyəti barədə, onun ölkədəki potensial siyasi və dini müxalifət qruplarını təsir altına almaq cəhdlərindən yazıb. O zaman daha çox Mahmudovun vəhhabilərə verdiyi dəstək önə çıxarılırdı. Türk mətbuatına sızmış Mahudov-Gülən bağlantısı haqqında ilginc məlumat bu yazıları bir növ təsdiqləyir. Kifayət qədər maraq doğuran bu araşdırma Mahmudovun radikal dindarlığa verdiyi gizli dəstəyinə yeni anlam qazandırır. Təbii ki, “Gülən camaatı” ilk növbədə Azərbaycanın dini mənzərəsində özlərindən başqa “mötədil” bir dindar tipinin olmasında maraqlı deyildi. Yəni FETÖ-nün strategiyasına görə, onun alternativ yalnız radikal, dar dünyagörüşlü və qeyri-milli dindarlıq olmalıydı ki, öz sıralarına “verbovka” işini rahatlıqla apara bilsin. Sabiq MTN şefinin dini sahədəki fəaliyyəti də məhz bu nəticəyə xidmət edirdi. “AK qəzete”nin hazırladığı məqalədə bu sualın cavabı müsbət görünür.

**Kənan RÖVŞƏNOĞLU**

Zəruru qeyd: **Adı camaat polislərinin planlaşdırdığı saxta “Salam-Tevhid” cinayət işində keçən Məzlumder Hüquq Müdafiə Dərnəyinin Ankara nümayəndəsi Üzeyir Yiğit Azərbaycanda hökumət orqanlarının dindarlara qarşı əməliyyatlarının arxasında “camaat”ın dayandığını bildirib. Sitat: “Fətullah Gülənə bağlı güclər Türkiyədə həyata keçirdikləri işlər onu göstərir ki, onlar Azərbaycanda da sakit dayanmayıblar. Əvvəllər Azərbaycan dövlətinin yerli islamçı qruplara qarşı əməliyyatlar həyata keçirdiyini düşünürdüm, amma sonradan rastlaşdığım bir sıra sübutlar bu əməliyyatların arxasında ”camaat"ın dayandığını göstərir. Əsas məqsədləri isə Gülən ideologiyasının rahat yayılması üçün digər qrupları sıradan çıxarmaq olub".**

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016

# Azərbaycanın xüsusi xidmətinin xüsusi hədəfi

**Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) son günlər reket nəşrlər və sayt rəhbərlərinin həbsinə başlaması ölkə gündəminin əsas mövzularından birinə çevrilib. Eldar Mahmudovun işdən qovulmasından 1 il sonraya təsadüf edən bu həbslər ləğv olunmuş MTN şəbəkəsinin mediada "kökünün" qazınması hesab olunur. "Yeni Müsavat"a mötəbər qaynaqlardan məlum olub ki, proses, o cümlədən də reket jurnalistlərin ifşası və həbsi davam etdiriləcək.**



# DTX-nin reket mətbuata qarşı əməliyyatlarının pərdəarxası - sensasion məlumatlar

## Reket nəşrlərə pul və informasiyalar ötürən məmurların adları istintaqa məlumdur; dövlət içində MTN-in qurduğu böyük kompromat şəbəkəsi çökdürülür; reket mediaya "nəfəs vermiş" şəxslər barədə də sərt ölçü götürüləcək...

Xəbər verildiyi kimi, "Bizim dövr" qəzetinin (həm də eyniadlı saytın) rəhbəri Surxay Əliyev, "Gündəlik Bakı" qəzetinin (həm də eyni adlı saytın) baş redaktoru Habil Vəliyev xüsusi əməliyyat zamanı saxlanılıb. DTX-nin yaydığı rəsmi məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxs gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparmaqla şantajda, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarda dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb etməkdə, eləcə də müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan "haqq" almaqda suçlanırlar. Məhkəmə artıq hər iki şəxs barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçib.

Məlumatlara görə, bu şəxslərə əməllərinə dəstək vermiş ayrı-ayrı adamlar, o cümlədən şantajçı qadınlar da saxlanılıb. "MTN çetesi"nin ifşasından sonra bu quruma bağlı olan medianın da adı mətbuatda tez-tez hallanırdı. Onların fəaliyyətini hələ də davam etdirməsi bəzi suallar da yaratmışdı. İddia olunurdu ki, bu şəbəkə indi də başqa bir dövlət orqanının və ya ayrı-ayrı məmurların himayəsində fəaliyyət göstərə bilər.

Bildirilir ki, DTX artıq bir neçə ay imiş ki, "MTN çetesi"nin "son qalaları"nı xüsusi nəzarətə alıbmış. Bu nəzarət təkcə bu medianın keçmiş bağlantılarını deyil, həm də indi hansı məmurların himayəsində olduğunu üzə çıxarmağa hesablanıbmış. Nəzarətdə olanları duyuq salmamaq üçün onlara hətta "meydan verilib" ki, bütün əlaqələrini ifşa edə bilsinlər. Bu, DTX-nin yaydığı məlumatdan da açıq görünür: "Cinayət məsuliyyətinə cəlb edilən Surxay Əliyev və digərləri zərərçəkmiş şəxslərə qarşı çoxsaylı cinayət əməlləri barədə ətraflı məlumatlar verib, onların hazırladıqları şantaj xarakterli materiallar, eləcə də ayrı-ayrı vətəndaşların intim münasibətlərinə dair gizli aparılmış videoçəkilişlər müəyyən edilib", deyə, məlumatda bildirilir. Aydındır ki, DTX-nin əlində bu cinayət əməllərini sübut edə biləcək videoçəkilişlər və əlavə sübutlar da var ki, ola bilsin yaxınlarda bu barədə geniş məlumat hazırlansın...

DTX-nin həbsləri sübutlarla möhkəmləndirməsi üçün bir neçə ay gözləməsi əslində başadüşüləndir. Çünki media siyasi hakimiyyətin xaricin reaksiyalarına ən həssas nöqtəsidir. Bu cür həbslər bəzi hallarda Qərbdə "mətbuata hücum" kimi də qiymətləndirilir, hətta həbs olunanların adları hansısa yollarla beynəlxalq təşkilatların hesabatlarına salınır. DTX isə indi həm daxildə ictimai dəstəyi tam qazanaraq, həm də əsaslı sübutlarla bu həbslərə start verib və proses davamı olacaq.

Həbs edilən şəbəkənin ayrı-ayrı məmurlarla bağlantıları barədə də şok bilgilər var. Bildirilir ki, DTX bu qrupu himayə edənləri, o cümlədən şantaja uyaraq, reket jurnalistlərə xərac ödəyən yüksək rütbəli məmurları da ifşa edib. Sonuncular - reket jurnalistlərə boyun əyərək, onlara müntəzəm para ödəyənlər onda suçlanır ki, niyə onlar dövlətin hansısa vəzifələrini təmsil etdikləri halda hüquq-mühafizə orqanlarına müraciət etmədən, bu cür nəşrlərin böyüməsinə xidmət edən bir əmələ - onlara xərac verməyə yol veriblər?

Reket nəşrlərə bir sıra dövlət adamları, iş sektoruna və vətəndaşlara dair məlumat servis edən bir sıra vəzifəli məmurlar da deşifrə olunub. Onlar indi DTX-nin əsas hədəfləridir. Bu məmurlardan güclü "informasiya dəstəyi" alanlar ayrı-ayrı şəxsləri məhz bu yolla şantaj ediblər. Onların "media təmsilçiləri" ilə haralarda görüşdükləri, necə təlimatlandırıldıqları, eləcə də necə maliyyələşdirdikləri də müəyyən edilib. Məlumatda deyilir ki, bu əlaqələr əsasən həmin "patron"ların sürücüləri vasitəsilə qurulub, bəzi hallarda isə birbaşa təmaslar olub.

Reket şəbəkənin əsasən qadınların vasitəçiliyi ilə şantajla məşğul olmaqla küllimiqdarda para qazandıqları da üzə çıxıb. Bu işdə də onları həm lazımi texniki vasitələrlə, həm də qadınlarla, "görüş yerləri" ilə təmin edərək, himayədarlıq edənlər var və onlar da istintaqa məlumdur. İstisna deyil ki, intim videolar da məhz himayəçilərinin çoxsaylı restoran və ya gizli mənzillərində qeydə alınıb. Bu cür asan qazanc sayəsində reket "media təmsilçiləri" himayəçilərindən pis yaşamayıblar-bahalı maşınlar alıb, dəbdəbəli ofislərdə oturublar. Azpolitika.az saytı yazır ki, bu şəbəkənin MTN-çi himayədarları ilə birlikdə öz qurbanlarından aldığı məbləğlər çox vaxt 6 rəqəmlə ifadə olunan məbləğlər olurdu.

DTX-nin ifşa etdiyi şəbəkəyə bağlılığı olan məmurların, vəzifəli şəxslərin siyahısının artıq lazımi instansiyalara təqdim olunduğu da gələn məlumatlar sırasındadır. Bildirilir ki, reket mediaya "nəfəs vermiş" şəxslər barədə də sərt ölçü götürüləcək. Qeyd edək ki, DTX-nin əməliyyatı təkcə hüquq müstəvisində uğurlu əməliyyat deyil, həm də medianın təmizlənməsi işində yaxşı bir xidmətdir.

❑ "YM"

# Hərbçilərin təqaüd yaşını artırmaq təklifinə sərt reaksiya

## Üzeyir Cəfərov: "Təklif keçsə, gələn il ali hərbi məktəblərə qəbul üçün kimsəni tapmayacaqlar"

**Dekabrın 16-da Milli Məclisdə müzakirəyə çıxarılacaq "Əmək pensiyaları haqqında" Qanuna əlavə və dəyişikliklər layihəsi indidən kəskin etiraz doğurub. Layihəyə əsasən, bütün peşələr üzrə pensiyaya çıxmaq üçün tələb olunan iş stajı artırılır. Layihədə ümumilikdə pensiya yaşının artırılaraq əmək pensiyaları üçün tələb olunan yaş hədləri ilə diferensiallaşdırılması da əks olunub.**

Sənəd xüsusən hərbçilər arasında kəskin etiraz doğurub. **Hərbi ekspert Üzeyir Cəfərov** deyir ki, məsələ gündəmə gələndən sonra ona çoxsaylı müraciətlər olub: "Xüsusən bu gün hərbi xidmətdə olan zabit və gizirlər çox narahatdırlar. Mən hökumətdəkilərin bu məsələyə xüsusi həssaslıqla yanaşmasını istəyirəm. Hərbçilərin 20 il xidmətdən sonra təqaüdə göndərilməsi təsadüfi deyil. Sovet dövründə böyük elmi-tədqiqat institutlarının araşdırmalarının nəticəsi olaraq bu optimal rəqəm ortaya qoyulmuşdu. İndi isə bu rəqəmi 25 ilə qaldırmaq istəyirlər. Bu təklifi verənlər isti kabinetdən çıxıb gedib 5 il deyil, elə 5 ay həmin hərbçilərin xidmət etdiyi şərtlər altında yaşasınlar. İnanıram ki, bundan sonra xidmət müddətinin 15 ilə qədər azaldılmasını təklif edəcəklər".

**Ü.Cəfərov deyir ki, hərbi xidmətdə olanlar döyüş şəraitində sutkanın 24 saatını vətənin xidmətində dayanırlar:** "Bəziləri bunu unudub, hərbçilərin haqqını tapdayırlar. Güc strukturlarının mövqeyi də heyrətləndiricidir. Susqunluq nümayiş etdirirlər. 2014-cü ildə bu söz-söhbət çıxanda 20 ilini başa vurmuş 1000-lərlə zabit və gizir ordudan tərxis olunmaq üçün müraciətlər etdi. Xidmət müddətinin 25 ilə qaldırılmasını belə əsaslandırırlar ki, bizdə generallar cavandır. Əgər azlıqda olan generalları düşünürsüzsə, niyə ordunun çoxluqda olan hissəsini düşünmürsüz? Bu haqsız və ədalətsiz təklifi verməkdənsə, hərbçilərə şəxsi seçim imkanı verilsin - kim istəyir



20 xidmət ilini başa vurub təqaüdə getsin, istəməyənlər qalıb karyeralarını davam etdirsinlər, rütbələrini artırsınlar".

**Hərbi ekspert bu təkliflə çıxış etmiş şəxslərin avtobioqrafiyasına nəzərə salmağın vacib olduğunu da deyib:** "Baxmaq lazımdır ki, özləri, övladları hərbidə olublarmı? Murovdağda xidmətin nə olduğunu bilirlərmi? Xəbərləri var ki, hərbçilər hansı mərhumiyyətlərlə üz-üzə mərdi-mərdanə dayanıb vətəni qoruyurlar? Bakıda bahalı maşınlarda, isti kabinetlərdəki yumşaq kreslolarda oturub hərbçilərin təqaüd yaşını qaldırmaq indiki halda vətənə qarşı təxribatdır. Əgər bu təklif etirazlara baxmayaraq qəbul ediləcəksə, gələn il ali hərbi məktəblərə qəbul üçün kimsəni tapmayacaqlar. Bizim 11 manatlıq müavinəti də illər öncə kəsiblər, Ali Məhkəmə bunun qanunsuz olduğunu təsbit edib. Lakin qərarı icra etmirlər. Azərbaycanın ərazi bütövlüyünü kimlərin hesabına bərpa etmək istəyirlər? Təqaüdlərini, müavinətlərini kəsdikləri hərbçilərin?"

**Ü.Cəfərov deputatlara müraciət edərək, onları dekabrın 16-da müzakirəyə çıxarılacaq bu qanun layihəsinin əleyhinə səs verməyə çağırıb:** "Dövlətin müdafiəsi və təhlükəsizliyi məsələsində belə addımlar yolverilməzdir. Müharibə vəziyyətində olan bir dövlətdə isə belə bir qərarın qəbulu absurddur".

❑ E.MƏMMƏDƏLİYEV

# "Reket" baş redaktor necə məntəqə sədri olub?

## Akif Qurbanov: "Onun namizədliyini kimlər veribsə..."

**"Reket" fəaliyyətinə görə həbs edilən "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Vəliyev barəsində yeni faktlar ortaya çıxıb. Məlum olub ki, YAP üzvü olan "reket jurnalist" 125 saylı Zəngilan-Qubadlı Dairə Seçki Komissiyasında 6 saylı məntəqənin sədridir.**




MSK-dan verilən məlumatda da H.Vəliyevin məntəqə sədri olması təsdiqlənib. Onun həbsindən sonra yaxın günlərdə Vəliyevin məntəqə sədrliyindən uzaqlaşdırılması məsələsinə baxılacaq. H.Vəliyevin tutduğu daha bir ictimai vəzifə var ki, o, bundan da əksər zamanlarda məharətlə yararlanıb. Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Yasamal rayon təşkilatının sədri olan qəzet redaktoru yazdığı yazılara görə cəlb olunduğu məhkəmələrin bir çoxunda təşkilatının üzvü olan əlillərin presinqindən istifadə edib.

Uzun illərdir "reket"liklə məşğul olan bir şəxsin məntəqə sədri olmasına göz yumulması geniş müzakirələrə səbəb olub. Kimisi bu məsələdə MSK-nı, kimisi də yerli DSK-nı günahlandırır.

Məsələ ilə bağlı MSK-nın mövqeyini almağa çalışsaq da, mümkün olmadı.

MSK-nın keçmiş üzvü Akif Qurbanov isə bildirdi ki, Seçki Məcəlləsinin tələblərinə görə komissiya müəyyən edilərkən parlamentdə hansı siyasi partiyanın çox yer tutması, eləcə də azlıqda olan partiyalar və bitərəflər nəzərə alınır: "Bu səbəblərdən DSK və məntəqələr müəyyənləşir. Əgər qeyd etdiyiniz şəxs faktiki məntəqə sədri olubsa, onun namizədliyi hakim partiya olan YAP tərəfindən irəli sürülüb. Həmin komissiya da təsdiq olunub. Bu baxımdan, onun namizədliyini kimlər veribsə, bu məsələdə məsuliyyət daşıyırlar".

❑ Cavanşir ABBASLI

# Yəhudi əsilli deputatdan "Yeni Müsavat"a ilginc açıqlamalar

## Yevda Abramov: "Belə pis vaxtda öz vəsaitindən bir az xalq üçün xərcləyəndə nə olar?!"

**Yevda Abramovun Milli Məclisdəki büdcə müzakirələrində hökumətin tənqidinə yönəlik sərt çıxışı xeyli müzakirələrə səbəb olub. Onun çıxışında dolların "qara bazar"ı ilə bağlı məqam da vardı. Deputatla müsahibəmizdə ilk olaraq bu barədə soruşduq:**

***- Yevda müəllim, sizin çıxışınızdan sonra Beynəlxalq Bankın İdarə Heyətinin sədri vəzifəsindən uzaqlaşdırıldı. Deməli olarmı ki, bu, sizin çıxışınıza hökumətin reaksiyasıdır?***

- Vallah mən deyə bilmərəm. Hökumət nə edibsə, sağ olsun. Mən Azərbaycan xalqının, prezidentin heyranıyam. Harada olsam, mənim üçün bu xalqdan, bu millətdən, bu respublikadan, bu prezidentdən üstün heç kim, heç nə yoxdur. Mən tək adamam. Bunlar başa düşə bilmirlər... Mənim bundan sonra nazir olmaq fikrim yoxdur. Bu vəzifədən pensiyaya çıxıb gedəcəyəm balalarımın yanına. Ona görə istəyirəm ki, parlamentdəki illərim hədər getməsin, nə isə edə bilim. Məni partiya bura gətiribsə, cənab prezident etimad göstəribsə, gəlib elə-belə burada otura bilmərəm. Mən xalqın dərdini o salona gətirməliyəm. Sadə həyatımı yaşayıram, heç nədə gözüm yoxdur. Amma mənim bu xalqa yazığım gəlir. Mən ay yarımdır rayonda qazla, işıqla məşğul oluram, qaynaqçı ilə bir yerdə işləyirəm. Nələrdən danışım, problemlər çoxdur... Ordan-burdan, iş adamlarından boru alıram. Köhnəlmiş, sovet dövründə çəkilmiş boruları dəyişirəm. İş adamlarını bu işlərə cəlb eləyirəm. Cənab prezident yüzlərlə qonaq göndərir, Allah canını sağ eləsin. Bütün xarici qonaqlar Qubaya gəlir. Soyqırım Muzeyinin də işığı yanmır...

***- Parlamentdə də bu barədə dediniz. Niyə söndürüblər işığı?***

- Yoxdur da, işıq. Pul tapa bilmirlər ki, borcu ödəsinlər.

***- Nə qədər borc yığılıb?***

- Vallah bunu dəqiq icra başçı bilir. Gedir Prezident Administrasiyasına, xahiş edir, düzəlmir ki, düzəlmir. Gənclər Meydanıdır, başçıya deyirəm ki, bunu Gənclər və İdman Nazirliyi öhdəsinə götürsün. Heyfdir bu binalar, tikilib qalıb. Yəqin oturub danışacaqlar, bir əncam çəkəcəklər. Axı belə olmaz, bu iki binanın işığı olmalıdır, kimlərsə ona yiyə durmalıdır. Bu muzey yerin altındadır, oranı işıqsız saxlamaq olmaz. Bunlar elə bilir ki, mən bunu populizm kimi deyirəm, ya mənə imic üçün lazımdır. Mən 70 yaşa gəlib çatmışam. Bundan sonra kiminsə məni tərifləməsinin əhəmiyyəti yoxdur. Üzünə demirəm, Elşad, inan ki, çox jurnalistlərdən uzaq olmağa çalışıram, telefonları açmıram. Amma sənə danışıram, bilirəm ki, olduğu kimi yazırsan. Görürsən bəziləri yalan yazırlar, kontekstdən çıxararlar, sözlərimi qırıq-qırıq verirlər. Televiziyada çıxışına baxırsan, görürsən ki, məruzənin mayası çıxarılıb, mətn dəyişib, tamaşaçı, ya oxucu sənin fikrini tuta bilmir. Axı mən də vaxtilə jurnalistika ilə məşğul olmuşam. Mənim belələrinə sözüm odur ki, dediyimi ya tam yazın, ya heç yazmayın! Eybi yoxdur, mənə "qoyunların çobanı" deyirlər, mən bundan incimirəm, bütün peyğəmbərlər çobanlıqdan gəliblər. Mən gedib həmin adamı məhkəməyə verən deyiləm ki, yazıb da...

### "Mən kiminsə qoyun saxlamasının paxılı deyiləm"

***- Yevda müəllim, xoş sözlərə görə sağ olun. Amma deyim ki, parlamentdəki çıxışınız çox yerdə təqdir olundu. Tənqid etdiyiniz ünvanlardan necə, sizə qınaq, irad, inciklik mesajları gəldimi?***

- Yox, vallah. İnan Allaha, mənə heç kim deməyib ki, bunu niyə dedin, niyə demədin. Nə partiya sədri, nə katibi, nə də spiker... Mən sözümü demişəm. Orda mən cinayət işlətməmişəm, təhqir deməmişəm. Qubadan zəng edirlər ki, Yevda müəllim, 100 dollar almaq olmur, hamısını yığışdırıblar.

***- Büdcə müzakirələrində elektrik enerjisi və qazın bahalaşması ilə bağlı deputatların etirazları da nəzərə alınmadı...***

- Nə deyək? Borcumuz xalqı narahat edən problemləri zala gətirmək, dövlətlə xalq arasında vasitəçi rolunu oynamaqdır, biz də onu edirik. İndi necə alınır, alınmır, bu, Azərbaycan reallığıdır, Azərbaycan dövlətidir, o da öz yorğanına görə ayağını uzadır. Nə bilim... Mən onu da gözləmirəm ki, nə deyiriksə, elə həmin gün yerinə yetirilməlidir. Mən sözümü dedim, xalq da sağ olsun, təşəkkürünü bildirir. Əslində mən bunu təşəkkür, ya imic qazanmaq üçün eləməmişəm. Həyatda nə qazanmışamsa, qazanmışam. Bütün vəzifələri görmüşəm, müəllimdən tutmuş millət vəkilliyinə qədər gəlmişəm. Necə işləyirəmsə, siz bilirsiniz, xalq bilir. Allahın qabağında da düzəm, prezidentimin, partiya sədrimin qabağında da tərtəmizəm. Məni tanıyan insanlar var. Elə mənə dərs deyən Yaqub Mahmudov deputatdır. Məni 1985-ci ildə müəllimlikdən İcraiyyə Komitəsinin sədri gətirən Arif Rəhimzadə zaldadır, birinci katib olub. Tələbə dostlarım bilir ki, mən institutu əla bitirmişəm. Mən burda necə danışıramsa, Strasburqda da, Konqresdə də, Senatda da o cür danışıram, deputatlar da görürlər. Çox kəskin danışıram. Mənim danışıq formam belədir.

***- Belə fikir də var ki, Yevda Abramovun arxasında yəhudi lobbisi, İsrail dövləti dayandığı üçün belə açıq və cəsarətli danışa bilir...***

- (Möhkəm gülür) Lobbi deyəndə ki, dünyada azdan-çoxdan tanıyırlar. Hara gedirəm, öpüşürəm, qucaqlaşıram. Bütün dünyanın yəhudi parlamentariləri ilə mənim dostluğum var. Əksəriyyəti ilə, lordlarla da... Amma mənim arxamda mənim partiyam, mənim prezidentim var. Əlbəttə, Azərbaycan, Qarabağ, Xocalı məsələsi naminə mən sizinlə razılaşıram. Düz deyirsiniz, bəli, mən bu fikirdən istifadə edirəm. Ermənilər də bunu bilirlər. Yəqin erməni saytlarında da oxumusunuz, bütün günü məni orda söyürlər.

***- Quba həssas bölgələrdəndir. Oradakı problemlərin həlli ilə bağlı işlər görülürmü?***

- Axşam zəng elədilər ki, qara baxmayaraq, qaz idarəsinin bütün işçiləri işləyirlər, sağ olsunlar. Orda bir transformatorun qoyulması ilə bağlı da uşaqlara demişdim kömək eləsinlər. Onu da qururlar. Özüm həftədə 1-2 dəfə rayona gedib gəlirəm, həmişə seçicilərimin yanındayam.



### "Cənab prezidentin hər şeydən xəbəri var"

***- Siz və həmkarlarınız təkliflər verdiniz, çıxışlarınız oldu. Necə bilirsiniz, hökumət dekabrın 16-da büdcə ilə bağlı parlamentin qərar verəcəyi iclasa nə ilə gələcək?***

- Bəlkə də büdcənin bəzi parametrlərində cüzi, kosmetik dəyişikliklər edə bilərlər. Ancaq mən əsaslı nə isə gözləmirəm. Bütün fikirlər səsləndirilib. Daha nə qalıb ki, nə ilə də gəlsin?

***- Yevda müəllim, çıxışınızda qoyun sürülərindən danışdınız, amma sahibləri olan məmurların adını çəkmədiniz, bu da fərqli yozumlara səbəb oldu...***

- Azərbaycanda bir ağsaqqallıq institutu, ədəb-ərkan var. Hər halda, yəqin həmin insanlar evlərində bu barədə bir az fikirləşirlər. Mən kiminsə qoyun saxlamasının paxılı deyiləm. Allaha and olsun! O sürülər lap min, milyon olsun. Mən onu istəyirəm ki, heç olmasa o ərazilərdən keçib qışlağa gedirlər, o bələdiyyələrə bir az kömək etsinlər. Keçən il də Qonaqkənd məsələsini hökumətin hesabatında qaldıranda həyəcan təbili çaldım. Heç olmasa həmin çıxışımdan sonra Qonaqkəndə getməliydilər, məsələlərə müdaxilə etməliydilər. Mən kiminsə qoyun saxlamasına paxıllıq edirəmmi? Ay tövbə! Mən çox ali bir seyid ailəsindənəm, bir Allah adamıyam. Mən deyirəm ki, insan varından, dövlətindən bir az da xalqına kömək etsin. Cənab prezident bu qədər iş görür, bu qədər islahatlar həyata keçirir, nə olar onun yanında olanda?! Nə olar onunla bu məsələlərdə həmrəy olanda?! Belə pis vaxtda öz vəsaitindən bir az xalq üçün xərcləyəndə nə olar?! Qoy bir-iki il orta səviyyədə yaşayaq, orta səviyyədən aşağı yaşayaq, amma xalqımız, dövlətimiz sağ olsun.

***- Qoyun sürülərinin sahiblərindən danışmışkən, deməli, sürü sahibləri əraziləri də ələ keçiriblər, eləmi?***

- Təbii ki. Orada qışlaqlar var. Yaxşı ki, cənab prezident bu məsələni duydu, istifadə olunmayan torpaqlarla bağlı qərar verdi. Sizə bir şey deyim: cənab prezidentin hər şeydən xəbəri var. Ona düzgün məlumat verilir, verilmir, özü bunu yoxlayır. O bütün xalqın ürəyindən xəbər verir. Qərardan sonra həmin torpaqlar da geri alındı. İndi orada böyük bir iş gedir, on minlərlə fındıq ağacı əkilir. Torpaqlar geri qaytarılır. Prezidentin qərarı budur ki, qeyri-neft məhsulları, kənd təsərrüfatı məhsulları ilə dünya bazarına çıxaq və ölkəmizə valyuta axınını təmin edək. Bu, çox doğru siyasətdir. Bilirsiniz ki, 12 maddədən ibarət iqtisadi inkişafın "Yol xəritəsi" də hazırlanıb. Yəqin ki, biz 2017-18-ci illərdə həmin "Yol xəritəsi" ilə gedəcəyik və bizi uğurlara aparacaq. Cənab prezidentin dediyi kimi, biz neft kapitalını insan kapitalına çeviririk. İnsan kapitalının da biliyini, savadını kənd təsərrüfatı sahəsinə yönəldəcəyik. Dünyanın bir sıra ölkələri var ki, nefti yoxdur, kənd təsərrüfatı ilə dolanır. Ölkə var nefti, qazı yoxdur, amma on ildir ki, dollarla milli valyutasının arasındakı tərəddüd 2-3 qəpikdir. 10 ildir! Bunlar necə bunu bacarırlar? Bax, bu təcrübəni öyrənmək lazımdır.

***- İsrailin iş adamları Azərbaycana yatırım qoya bilərmi?***

- Burada İsrail iş adamlarının investisiyaları var. Azərbaycanda bir sıra tərəvəz məhsullarının, xüsusilə pomidor və xiyarın yetişdirilməsi İsrail mütəxəssislərinin köməyi və texnologiyası, onların layihələri ilə həyata keçirilir. İstixanalarda damcı ilə suvarma sistemi İsrail sistemidir.

**❑ Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016



# Norveçli sosioloq, amerikalı artist, rusiyalı yurist

Samir SARI

**ABŞ-ın yeni seçilmiş prezidenti Trampın ekstravaqantlığından (bilməyənlər üçün deyim ki, bu pis söz deyil) söz düşəndə və kimsə "vallah, bu çalbaş kişi Amerikanı dağıdacaq" deyə rəy bildirəndə bəzi politoloq, ekspert dostlar deyirlər ki, Tramp ABŞ-a heç zad eləyə bilməz.**

Nədən? Ona görə ki, ABŞ-da dərin dövlət, elmi mərkəzlər, strateji institutlar var və ölkənin siyasətini onlar, savadlı adamların sözü olmasın, konseptual şəkildə planlaşdırırlar. Deməк, Tramp da o yan-bu yan edə bilməz, eləsə, biabırçılıq olar - tarixdə Nikson, Kennedi vaqiələri var.

Təki elə olsun. Amma budur, bir norveçli sosioloq deyib ki, Tramp ABŞ-ın dünya hegemonluğunun sonunu tezləşdirəcək. Qaltunq soyadlı bu kişi vaxtilə SSRİ-nin də çöküşünü proqnozlaşdırıb, yazıbmış.

Bildiyiniz kimi, SSRİ 25 il bundan qabaq çökdü, getdi. İndi Putin ha istəyir ki, onu yerdən qaldırsın, alınmır. Götürüm düşmüş atı yenidən ayaq üstünə qaldırmaq mümkün olmadığı kimi, SSRİ-ni də yerindən qaldırmaq olmur. Amma bu heç.

Hələ o vaxt o fantastik proqnozu verərkən Yuxan Qaltunq indikindən 25-30 yaş cavan imiş, daha az təcrübəliymiş. Hesab edin ki, indi adam necə bir kəllə olub bu uzun illərdə.

1985-ci ildə Qorbaçov hakimiyyətə gələndə bu ölkədə kim desəydi ki, SSRİ çökəcək, adamı gecəylə dəlixanaya basardılar, ya da kənddə hoydu-hoyduya götürərdilər. Çünki SSRİ çökən dövlətə oxşamırdı, kasıb idi, amma çox güclüydü, orqanları da yaxşı işləyirdi.

Amma 1986-cı ildə spirtli içkilərin istehsalı və istemalı məhdudlaşdırılanda yerlərdə bir çox adamlar qımıldanmağa başladılar ki, bu keçəl kişi gül kimi ölkəni dağıdacaq. Bəziləri deyirdi ki, Qorbaçov arağı yasaqlamaqla rusların şərəf və ləyaqətini alçaldır, belə gedə bilməz.

Təsəvvür edin ki, 1983-cü ildə elə arasında "Andropovski" adı qazanmış araqla yeni-yeni əyyaşlıq aləminə qədəm qoyan yüz minlərlə gənc kişi hökumətdən yerdən göyəcən narazıydı. Bunlar potensial dağıdıcılar idi.

Tərs kimi, Qorbaçovun o biri siyasətləri də bir zibil deyildi.

Bugünkü gün kimi yadımdadır, Qarabağ münaqişəsi təzə-təzə başlayanda və Qorbaçov ermənilərı yerlərində oturda bilməyəndə bir sıra oxumuş və oxumamış, amma dünyagörmüş adamlar KQB-dən çəkinə-çəkinə deyirdilər ki, o təpəsi xallı kişi (artıq "keçəl kişi" ünvanının yerində bu idi) ölkəni dağıdır.

1988-ci ildə Dəvəçidə (indiki Şabran) işlədiyim zaman bir benzindaşıyan maşının ağsaqqal sürücüsü (təəssüf ki, adı yadımda qalmayıb) qarajda SSRİ-Azərbaycan-Qarabağ-Ermənistan mövzusunda gedən söhbətə qəfildən müdaxilə edərək dedi ki, heç xeyirli gələcək görsənmir, ölkə dağılacaq, hər şey bərbad olacaq, camaat aclıq çəkəcək.

O kişi uşaqlığı və ya yeniyetməliyi müharibə dövrünün aclığına düşmüş adam idi, ona görə də öz məşum proqnozlarını verərkən çox bədbin və kədərli idi. Sonradan onun dedikləri düz çıxdı və sürücü kişinin kədərinin səbəbi aydın oldu.

Yəni bu cür proqnozları qulaqardı etmək olmaz. Bu, heç ekstrasenslik, gələcəyi görmək vergisi-filanı da deyil. Dünya görmüş adamlar xırda əlamətlərdən, ortada dolaşan söhbətlərdən bilirlər ki, bu işin axırı hara gedir.

Ona görə də Qaltunqun ABŞ və Tramp haqda verdiyi bədbin proqnozu yazın bir yerə, qalsın (əslində ehtiyac yoxdur, Google-də qalır), sonra ABŞ tərəkəmə nehrəsi kimi çalxalananda açıb baxarsınız ki, norveçli sosioloq nə deyib, nə deməyib.

Şəxsən mən o kişidən - Trampdan qeyri-adi addımlar gözləyirəm. Onda o potensial var. Qıraqdan elə görünür. Hərçənd Qorbaçov elə görünmürdü. Təzə gələndə hamımız elə bilirdik, o, çox ağıllı adamdır. Hətta Qorbaçov ABŞ prezidenti Ronald Reyqanla görüşüb anlaşanda, axırı "yaşayarıq, görərik" və "güvən, amma yoxla" idiomatikası ilə bitən söhbətlər edəndə çoxları deyirdi, bizim yurist Amerikanın artistini aldadacaq. Axırı necə oldu? Məlum oldu ki, bizimki artist imiş, əsl yurist isə Reyqanmış.

Trampda da artistlik var, neçə-neçə filmlərə çəkilib, yuristliyini isə 3-4 aydan sonra görəcəyik. Görək norveçli sosioloqun proqnozu necə olur.

**VİP sədri Əli Əliyev prezident İlham Əliyevə müraciət ünvanlayıb. Onun müsavat.com-a göndərdiyi müraciətində qeyd edilir:**

# "Ayaz Mütəllibov müstəqil dövlətimizin imtiyazlarına layiq deyil"

## VİP sədri Əli Əliyev eks-prezidentin imtiyazlardan məhrum olunması üçün prezidentə müraciət etdi

- Haqqın.az saytında SSRİ-nin dağılmasının 25 illiyi ilə bağlı yazıda keçmiş Azərbaycan Respublikası prezidenti Ayaz Mütəllibovun müsahibəsi yer alıb (http://haqqin.az/news/86925 ttp://haqqin.az/news/86925).

Müsahibədə eks-prezident SSRİ-nin dağılması prosesindən təəssüf və ürək ağrısı ilə danışır. Keçmiş imperiyanın dağılmasını tarixin səhvi adlandıran Mütəllibov Qorbaçov və Yeltsin haqqında mənfi fikirlər səsləndirir. SSRİ-nin dağılmasını bir faciə kimi qiymətləndirən keçmiş kommunist-prezident, imperiyanın saxlanması üçün təşəbbüslərə zamanında hazır olduğunu, Belovejsk sazişi imzalanmasına dəvət olunmamasını SSRİ-nin dağılma səbəbi kimi təqdim edir.



Orada olacağı təqdirdə Azərbaycanın müstəqil olacağına dair əlindən gələni edəcəyini bildirir. Bu adam müstəqil və suveren respublikanın dövlət imtiyazları ilə yaşayan, ömür sürən birisidir. Çəkinmədən Azərbaycan Respublikasının dövlət müstəqilliyinə həqarət nümayiş etdirir.

Gör, bir YAP Azərbaycanı hansı günlərə yuvarlatdı. Müstəqillik əleyhinə 1991-ci ilin martında səs verənlər dövlət postlarında, parlamentdə kef-damaqda yaşayırlar.

Respublikanın bayrağı və gerbini Rəsulzadə versiyasında parlamentə gətirən, Müstəqillik Aktını imzalayan ilk prezident müstəqilliyə 25 ildən sonra hörmətsizlik nümayiş etdirir.

Anlayıram ki, bu müsahibə hakimiyyətin siyasi dəsti-xəttini yönləndirənlərə xoş gəlmək üçün verilib. Amma bu qədər də buqələmunluq etmək olmaz axı! İxtiyar yaşında birinin özünü bu qədər təkzib etməsi onun özünə ziyandır. Bu fakt bir daha göstərir ki, Ayaz Mütəllibov siyasətdə təsadüfi adamdır, heç bir siyasi duyumu mövcud deyilmiş. Sən demə, axına düşmüş çör-çöp kimi bu illər ərzində divara dəyə-dəyə mövcud olub. Biz hansı Mütəllibova inanaq? Dövlət müstəqilliyi aktına imza atan, Rəsulzadə dövlətini bərpa edən, onu dünyada tanıdan heyət formalaşdırıb dünyaya göndərən, ermənilərə qarşı prinsipial mübarizə aparanamı, yoxsa 1990 - cı ildə şəhidlərin qanı üzərində hakimiyyətə gələn, 1991-ci ilin martında referendumu təşkil edib SSRİ-ni qorumağa çalışan, Azərbaycandan qaçıb Moskvada gizlənən, belə müsahibə verib Azərbaycanın dövlət müstəqilliyindən təəssüflənən birisinəmi?

Prezident Əliyevə müraciət edərək, müstəqil dövlətin imtiyazlarına layiq olmadığını öz müsahibəsində ortaya qoymuş Mütəllibovu imtiyazlardan məhrum etməyə çağırıram. SSRİ-nin varisi Rusiya Federasiyasıdır. Qoy Mütəllibov Putindən imtiyaz dilənsin. Putin bundan yalnız sevinər.

Əslində siyasətçi şəxsiyyət, peşəkar olmadıqda, belə simptomatika üzə çıxır. Belə dəyişkən şəxslərə flüger deyirlər. Almaniyada flügerlərin maraqlı forması və yaxşı adı da var.

# Müxalifət dirçələ biləcəkmi…

## Demokratik düşərgə güclənə bilmirsə - bilmir, hakimiyyət daxilində müxalifət formalaşa bilər…

**Sirr deyil ki, Azərbaycan müxalifəti son illərdə tamamilə zəifləndilib, həmçinin onunla xalq arasında dərin bir uçurum yaranıb. Bunu son illərdə ölkə daxilində cərəyan edən proseslərdən görməmək mümkün deyil. Maraqlıdır ki, yaranan uçurumu aradan qaldırmaq üçün nə demokratik düşərgə, nə də xalq bir-birinə doğru addım atır.**



Təkcə son üç ildə Azərbaycanda keçirilən seçkilər və iqtisadi böhranla bağlı müxalifətin təşkil etdiyi mitinqlər dediklərimizi əyani sübut edir. Bakının mərkəzində müxalifətin keçirdiyi mitinqlərə öz tərəfdarlarından başqa neytral, amma narazı kütlədən kimsə gəlmir. Bu da xalqın müxalif düşərgəyə olan inamsızlığını sübut edir. Hətta xalqı yaxından maraqlandıran problemlərlə bağlı müxalifət keçirdiyi aksiyada belə cəmiyyətdən dəstək ala bilmir. Bu düşərgənin zəifliyi ölkədə bütün sahələrə ciddi təsir edir. Hakimiyyət istədiyini rahat şəkildə həyata keçirə bilir, ictimaiyyət ruhdan düşüb səsini çıxara bilmir, müxalifət öz piarını qura bilmir və sonunda yorulur.

Amma danılmaz bir fakt da var ki, hər bir ölkənin inkişafı, həmçinin hakimiyyətin özünə də güclü müxalifətin olması çox vacibdir. Azərbaycan iqtidarı bunu bilməmiş deyil. Məsələ ondadır ki, əgər siyasi rəqibin olmayacaqsa, öz daxilində rəqib yaranacaq, hakimiyyət daxilində mərkəzdənqaçmalar baş verəcək. Digər tərəfdən, beynəlxalq aləmin də müxalifətin sıradan çıxarıldığı ölkələrin hakimiyyətinə münasibəti birmənalı olmayacaq. Bütün bunları nəzərə alaraq, ölkə iqtidarının müxalifətin güclənməsinə şərait yaratmaq barədə düşündüyü iddiaları var.

**Politoloq Natiq Miri hesab edir ki, müxalifət və xalqı birləşdirmək üçün ortada mütləq bir ideya lazımdır:** "İnstitutlaşmış bir ideya olmalıdır. Bu millətin ideyası olmalıdır ki, hər kəs asanlıqla birləşə bilsin. Amma son onilliklərdə ortada insanları birləşdirəcək belə bir ideya yoxdur. Azərbaycanın Rusiyanın müstəmləkəsi olduğu zamanlar ortaq ideya əsarətdən qurtulmaq və müstəqil olmaqdan ibarət idi və insanlar bu ideyanın daşıyıcısı olmağı özlərinə bir növ borc bilirdilər. Bütün sistemlərin ruhuna uyğun davranış idi. Amma bu gün vahid bir sistem yoxdur. Bu sistemin parçalarını birləşdirəcək ideoloji məqam da yoxdur. Ona görə də insanlar pərakəndədirlər. İnsanların proseslərə laqeyd olmalarının obyektiv və subyektiv səbəbləri də var. Bu gün müxalifət və cəmiyyəti birləşdirəcək çox ciddi bir ideoloji əsaslar olmalıdır. Bizim millət özünə qayıtmalıdır. Türklər özünə qayıtdıqları zaman böyük olurlar. Ümid edirəm ki, bu millət vahid sistemdə özünü sübut etmək üçün yenidən birləşəcək. Əgər millət vahid olacaqsa, o zaman hakimiyyət də millətlə, xüsusilə onun aparıcı elementləri olan xalqla hesablaşmaq məcburiyyətində qalacaq. Bu gün o güc, hakimiyyətə alternativ qüvvə yoxdur. Ona görə də hakimiyyət istədiklərini edir. Amma bir şeyi nəzərə almaq lazımdır ki, iqtidarın etdikləri artıq özünə qarşı çevrilməyə başlayıb. Çox ciddi iqtisadi sıxıntılar var. Bu dövlətdə ciddi sosial partlayışlar vəd edir. Ona görə hökumətin özünə də güclü müxalifət lazımdır. Krizis vəziyyətindən çıxıb qarşıqlı addımlar atmaq lazımdır. Vahid sistem olmazsa, parçaları birləşdirmək mümkün olmayacaq. Hakimiyyətin yuxarı dairələri anlamalıdır ki, müxalifətin olmaması onlara təhlükə yaradacaq amildir. Çünki bu düşərgə olmayacaqsa, yaxud darmadağın edilmiş vəziyyətə gətiriləcəksə, o zaman hakimiyyətin daxilində bir müxalif qrup formalaşacaq ki, bundan da xarici güclər istifadə edib iqtidarı dəyişə bilərlər. Xarici faktorlar daim bu məsələnin üzərində çox ciddi şəkildə işləyirlər. Üstəlik, hakimiyyət daxilindən müxalif qüvvə yaradıb, cəmiyyətin digər müxalif qüvvələrinin dəstəyi ilə hakimiyyətləri dəyişə bilirlər. Bu bütün zamanlarda gündəmdə olub. Bu gün real müxalifət olmasa, təbii ki, müqəddəs yerlər boş qalmayacaq. İndiki zamanda iqtidar daxilindən çox ciddi maliyyəsi olan müxalifət meydana çıxa bilər. Bu da hakimiyyətin özünə real müxalifətdən daha təhlükəli müxalifətdir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016

**Azərbaycanın yerləşdiyi regionda və ona yaxın bölgədə maraqlı proseslər cərəyan etməkdədir. Bu proseslərin lokomotivi qismində indi xeyli dərəcədə məhz Türkiyə çıxış etməkdədir. Daha doğrusu, həyati əhəmiyyətli gəlişmələrin episentrində Türkiyə, onun Rusiya, İran və bölgənin digər dövlətləri ilə hazırkı münasibətləri dayanır yazsaq, daha dəqiq olar.**

dədir. Deməli, həm də dost-düşmənlərin diqqətində və hədəfindəyik. Qarşıdakı həftə isə ölkəmiz üçün daha taleyüklü ola bilər. Çünki yayılan və hələ ki təkzib olunmayan informasiyalara inansaq, Azərbaycanın strateji tərəfdaşlarından olan İsrailin baş naziri Benyamin Netanyahu bir neçə gündən sonra - dekabrın 13-də Bakıya səfərə gələcək. Buradan isə Qazaxıstana yollanacaq.

*****

Əlbəttə ki, Azərbaycan tərəfi də bu kimi xəbərlərdən dolayı özünün zəruri və ön hazırlıqlarını həyata keçirir. Hər necə olmasa, Azərbaycan müstəqil dövlətdir və o üzdən öz dost-müttəfiqlərini seçməkdə də müstəqildir.

Əlbəttə ki, biz böyük qonşumuz olan İranla da qarşılıqlı maraqlara söykənən dost münasibətlərdə maraqlıyıq və nə yaxşı ki, bu əlaqələr son illər üçün əsas problemlər qismində, regional problemləri, o cümlədən İranın İsrailə qarşı münasibətini göstərib.

Onun sözlərinə görə, Yaxın Şərqdə yeni konfliktlərin ola biləcəyi Birləşmiş Ştatları ciddi narahat edir. **"Və bu məsələdə ABŞ İranın mövqeyi ilə razılaşmağa hazırdır. Ancaq Tehran yalnız onu bəyan edir ki, bu dövlətlərin ərazi bütövlüyünün tərəfdarıdır. Bu isə dinc-yanaşı mövcudluq üçün**

# Azərbaycan yenidən diqqətdə və... hədəfdə - kritik həftə

## İsrail baş nazirinin Bakı səfərinə sayılı günlər qaldı; amerikalı siyasi analitik bölgədəki durumu şərh edir; "İran böyük ölçüdə Ermənistanın tərəfini tutacaq..."



Məlumdur ki, Ankara İsraillə pozulmuş siyasi-diplomatik əlaqələrini artıq qaydaya salıb. Tezliklə səfirliklər tam həcmdə fəaliyyətə başlayacaq. Qardaş ölkənin həmçinin Rusiya ilə münasibətləri böyük ölçüdə normal məcraya qayıdıb və daha da inkişaf etməkdə, dərinləşməkdədir.

Xüsusən də Suriya, Hələb məsələsində iki dövlət arasında prinsipial anlaşmanın əldə olması haqda xəbərlər gəlməkdədir. Alanyada Türkiyə və Rusiya xarici işlər nazirləri arasında görüş və görüş fonunda Türkiyə parlamentinin "Türk axını" haqda sənədi təsdiqləməsi, dərhal sonra onu prezident R.T. Ərdoğanın imzalaması, ardınca XİN başçısı Mövlud Çavuşoğlunun Bakıya, baş nazir Binəli Yıldırımın Moskva səfərləri və orada Putinlə görüşməsi özlüyündə çox mətləblərdən xəbər verir.

Sözsüz ki, bu kimi olay və gəlişmələrin ölkəmizin milli maraqlarına da bilavasitə dəxli və təsiri var. Nə yaxşı ki, əsas təbii müttəfiqimiz olan Türkiyə eyni zamanda öz qardaşını - Azərbaycanı da unutmur. İmkan düşdükcə bizim köklü problemlərimizin, xüsusən də Dağlıq Qarabağ ixtilafının həllini də irəli aparmağa səy edir. Hətta deyilənlərə görə, Suriya böhranı ilə bağlı Ankara-Moskva strateji işbirliyi özündə Qarabağ nizamlamasını Azərbaycanın xeyrinə sürətləndirməyi də ehtiva edir. Bəzi rusiyalı analitiklərə görə isə Rusiya üçün mühüm önəm daşıyan Hələb Qarabağa dəyişdirilə də bilər, çünki Moskva və Ankara heç vaxt olmadığı qədər bölgədə bir-birinə ehtiyac duyur.

*****

Bir sözlə, Türkiyə ilə birgə Azərbaycan da faktiki surətdə proseslərin içində, episentrin-

İsrailin IzRus portalının yazdığına görə, ölkənin Xarici İşlər Nazirliyinin əməkdaşlarına aydın olmayan səbəblərdən həqiqi mənada bu tarixi səfərin detallarını şərh eləmək yasaqlanıb. **"İlk dəfə olaraq İsrail baş naziri postsovet məkanındakı iki müsəlman ölkəsinə səfər edəcək. Ona görə də bütün səhih məlumatları Bakı və Astanadan almaq lazım gəlir"**, - deyə portal qeyd edib. O da bildirilir ki, B. Netanyahu Bakıya səhər gələcək və burada bir neçə saat olacaq, eyni gün axşam isə Qazaxıstana uçacaq. Onun Bakıda prezident İlham Əliyevlə görüşü nəzərdə tutulur.

Təbii ki, bu səfər ən çox cənub qonşumuz İranı ciddi şəkildə narahat edir. Bu narahatlığın daha bir göstəricisi kimi, ötən həftə Keniyada iranlıların tutulmasını yada salmaq olar. Rəsmi məlumatlara görə, İranın diplomatik xidmət məşının saxlanan həmin şəxslər Azərbaycan, Hindistan və Tailandda İsrail obyektlərinə qarşı terror hazırlayırmışlar.

daha da genişlənib - ələlxüsus da iqtisadi-ticari sefarada. Ancaq müsəlman İranın işğalçı Ermənistanla isti əlaqələri, təcavüzkar üçün "nəfəslik" rolu oynaması, onu ayaqda saxlaması da Azərbaycanı, yumşaq desək, qayğılandırır.

Yeri gəlmişkən, bu ilin sonunadək İran prezidenti Həsən Ruhaninin İrəvana səfəri planlaşdırılır. Bəzi iddialara əsasən, Ermənistanda səbirsizliklə gözlənən bu ziyarətlə bağlı Tehran Azərbaycana görə, onu qıcıqlandırmamaq naminə bir qədər gözləmə mövqeyi seçib. Lakin Netanyahunun Bakı səfərindən dərhal sonra reallaşa bilər...

*****

Bu arada ABŞ-dakı Yaxın Şərq Siyasəti İnstitutunun ekspert Devid Polik həm bu xüsusda, həm də bütövlükdə bölgədə və onun ətrafında cərəyan edən proseslərlə bağlı maraqlı şərh verib. Konkret olaraq ABŞ-ın İranla münasibətlərində xeyli irəliləyiş əldə olunduğunu və vəziyyətin daha sabit xarakter aldığını deyən analitik yaxın perspektiv

**çox azdır. Habelə kürdlərin Türkiyəyə müqavimət göstərməsi nəticəsində Yaxın Şərqdə yeni böyük konflikt baş verə bilər və məlum deyil ki, İran belə vəziyyətdə necə hərəkət edəcək"**, - deyə amerikalı təhlilçi rəsmi Tehranın qeyri-müəyyən davranışlarına işarə vuraraq qeyd edib.

Bununla belə ekspert İranın Cənubi Qafqaza yönəlik siyasətinin daha aydın olduğunu düşünür. **"Söhbət ilk növbədə Qarabağa görə Azərbaycanla Ermənistan arasında yaşanan münaqişədən gedir. Tehran həm Azərbaycan, həm də Ermənistanla münasibətləri saxlamaqla ikitərəfli mövqe sərgiləyir. Ancaq böyük ölçüdə o, daha çox Ermənistanın tərəfini tutacaq"** - siyasi analitik əlavə edib.

*****

Amerikalı ekspertin son fikirlərinə, heç şübhəsiz, Həsən Ruhaninin gözlənilən İrəvan səfəri zamanı daha dolğun aydınlıq gələcək. Bəzi "i"lərin üzərinə çoxdan gözlənilən nöqtələr də yəqin ki, onda qoyulacaq...

❑ Analitik xidmət

# Niyə sizə olar, bizə yox?..



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Xocalı hərbi canisi Serj Sərkisyan yenə işğal altındakı Qarabağda peyda olub, burda "general" adlanan, əslində özü kimi separatçı-bandit tör-töküntülərini, Azərbaycan türmələrinin çoxdan darıxdığı hərbi cinayətkarları başına toplayaraq iclas keçirib.**

Nəsə bu "çağırılmamış qonaq" son zamanlar tez-tez Azərbaycanda görünür. Bir məqsədi yəqin ki, erməni xalqına növbəti dəfə ürək-dirək verməkdisə, - hərçənd onun özünə ürək-dirək verən lazımdır, - digər hədəfi böyük ehtimalla, Azərbaycan prezidentinin cəbhə xəttinə etdiyi son səfərlərinin düşmən tərəfdə doğurduğu psixoloji diskomfortu azaltmaqdır.

Sanki bununla o, Azərbaycan əsgərinin işğalçı qüvvələrə verdiyi aprel dərslərini unutdurmağa cəhd və ümid edir. Amma tarixi unudanlar, ondan ibrət götürməyənlər bir qayda olaraq, onu təkrar yaşamalı olurlar...

Sərkisyanın rəhbərliyi ilə işğal altındakı ərazilərimizdə terrorçu-başkəsənlərin toplantısı keçirilməkdə ikən, Minsk Qrupunun həmsədr dövlətlərinin xarici işlər nazirləri Almaniyada konfliktlə bağlı bəyanat yayıb. Bəyanatda bir cümlə xüsusilə diqqət çəkir. Orada deyilir ki, "Dağlıq Qarabağ ixtilafının hərbi həll yolu yoxdur".

Xub. Heç kim gənc insanların, gənc ailə başçılarının ölümünü arzulamaz. Amma baxın, həmin bəyanata imza atmış üç vasitəçi dövlətdən biri, konkret olaraq, Rusiya, onun prezidenti Vladimir Putin ötən əsrin 90-cı illərində Çeçenistanda milli-azadlıq hərəkatını *(Moskva ona separatçılıq deyir)* yatırmaq üçün bu məğrur xalqı qan içində boğub, faktiki, ona qarşı soyqırım həyata keçirib - nəinki dinc vasitələrə üstünlük verib.

10-12 sonra isə Rusiya oxşar taktika ilə Gürcüstanın Abxaziya və Cənubi Osetiya, 6 il sonra isə Krımı zorla özünə birləşdirdi, ilhaq etdi. İndi də Moskva "dinc yolla" Donbas problemini, Suriya böhranını "həll edir", dinc vasitələrlə Hələbi müxalifətçilərdən "təmizləyib" Bəşər Əsədə verməyə və Suriyada möhkəmlənməyə çalışır.

Eləcə də ikili standart siyasəti yürüdən Qərb dövlətləri, ABŞ-la bağlı oxşar nümunələr gətirmək olar. Yəni özlərinə gələndə münaqişələri zor gücünə "yoluna" qoyurlar, Azərbaycan kimi torpaqlarının 20%-i işğal altında olan ölkələr isə öz ərazi bütövlüyünü bərpa eləmək üçün yalnız dinc vasitələrdən istifadə eləməlidir. İndi harada qaldı bəs ələhəzrət ədalət, beynəlxalq hüquq? Niyə sizə olar, bizə yox?

Əlbəttə, o qədər də sadəlövh deyilik ki, sualın cavabını bilməyək. Səbəb elə ədalətsiz dünyanın özü qədər köhnə, eyni zamanda qədim olduğu qədər də təzədir. Çünki "Güclü həmişə haqlıdır" yazılmamış qanunu günü bu gün də öz qüvvəsindədir. O üzdən haqlı olmağımız yetərli deyil, həm də güclü olmalıyıq. Hər cəhətcə. Və ən əlverişli məqamı gözləməliyik. Həmin məqamda da Qarabağ problemini köklü şəkildə, birdəfəlik həll etməliyik.

Boş söhbətdir, Qarabağ konfliktinin də yeganə həll yolu - hərbidir, antiterror əməliyyatıdır. Dinc yolla nəsə mümkün olsaydı, 24 ildə olardı. Bunu məlum şablon bəyanatı yayan üç ölkənin XİN başçıları hamıdan gözəl bilir. Odur ki, gözə kül üfürməsinlər.

Hələ ki müharibə variantı real görünməsə də, Azərbaycan Ermənistan üzərində əzici hərbi üstünlüyü təmin etməli və onun daim bu səviyyədə qalmasının, həmçinin dost-müttəfiqlərimizin çoxalmasının qayğısına qalmalıdır. Sözsüz ki, düşmən sülh masası arxasında da gücümüzü hiss edəcəksə, yüzdə-yüz bizdən çəkinəcək.

Əzici üstünlük üçünsə iqtisadiyyatımız güclü olmalıdır ki, sanballı hərbi büdcəyə malik olaq. Əfsus ki, korrupsioner-klan hökuməti ilə buna nail olmaq real görünmür. Necə ki, Qarabağ məsələsinin dinc həll yolu mövcud deyil, eləcə də rüşvət-korrupsiya çirkabına bulaşan kadrlarla islahat aparmaq, qüdrətli iqtisadiyyat qurmaq istisnadır. Mümkün olsaydı, 22 ildə olardı.

Müxtəsəri budur ki, özümüzü aldatmayaq. Həm də tələsək. Nədən ki, vaxt çox deyil və regionun təzədən bölüşdürülməsi prosesi artıq başlayıb. Bölüşdürülənlərdən yox, bölənlərdən olaq. Hələlik müharibə real olmasa belə, gücümüzü görüb Qarabağ məsələsində bizimlə ehtiyatlı davranacaqlar. Çünki çağdaş dünyada güclü həmişə haqlıdır, haqlı isə həmişə güclü deyil. Təəssüf ki...

Yeni MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016



# Meşədə insan haqları

**Zamin HACI**
zaminhaci@mail.ru

**Bu gün - 10 dekabr Dünya İnsan Hüquqları Günüdür. Bayram münasibətilə yapistləri təbrik edirəm, çünki Azərbaycanda insan kimi yaşamaq hüququnu yalnız onlar əldə ediblər. Yerdə qalan canlılarımız, uçanlar, sürünənlər, suda-quruda yaşayanlar və uca millətimiz isə birtəhər gününü yola verməklə məşğuldur.**

Elə deputatxana üzvlərindən Hüseynbala Mirələmovun iki gün qabaq millətimizlə məzələnməsi tam yerindədir. Qaz idarəsinin müdiri olan bu məşhur deputat-yazıçı (dünya ədəbiyyatında ilk dəfə iki canavarın seks səhnəsini tam detallarıyla təsvir eləmişdir) deyib ki, ət, yağ, balıq, yemək tapa bilməyən seçicilər ac qalsınlar, formaya düşsünlər. Sağlamlıq üçün vacib imiş. Ayağı yorğana görə uzatmaq məsələsini bu da təkrar edibdir.

Dünən Türkiyədən də bir videoxəbərə baxdım, orda isə hansısa manıs toyda qazandığı 1 dollarlıqları çaya töküb başına türk lirəsindən "tac" qoymuşdu, deyirdi Ərdoğanın milli pula keçid çağırışını dəstəkləyirəm, rədd olsun Amerika və sairə. Doğrudan da bir millət iki dövlətik. Heç fərqimiz yoxdur. Burda krizisdən bankirləri imalə eləməklə çıxmaq istəyirlər, orda isə çaya dollar axıtmaqla. Nə etmək olar, dekorasiya mağaraya uyğundur. Belə ərazilərdə divardan sənə Mikelancelonun freskaları "baxası" deyil ki?

Hegelin fikirləri burada çox yerinə düşür: "Dünya tarixi azadlığı anlamağın tərəqqisindən ibarətdir, elə tərəqqi ki, biz onun zərurət olduğunu dərk etməliyik. Burada üç yol var. Şərq dünyasına görə bir nəfər azaddır. Yunan və Roma dünyasına görə bəziləri azaddır. Alman dünyası isə hamının azad olduğunu deyir. Dünya tarixində bizim gördüyümüz bu formalardan birincisi despotizm, ikincisi monarxiya, üçüncüsü isə demokratiyadır".

Sizə bir nəfərin azad olduğu ölkə lazımdırsa, buyurun, onu düzəldin. Mənə qalanda, heç Hegeldən sitat gətirməzdim, sadəcə, özümün necə savadlı olduğumu göstərmək istəyirəm. Çünki Tarif Şurasının qərarı var, gələn ildən savadsız adamlardan bilik vergisi tutulacaq. Zarafat edirəm, qorxmayın. Hərçənd universitetə uşaq hazırlaşdıran repetitorlardan vergi almaq üçün müqavilə formalarının hazırlandığı, Nazirlər Kabinetində bu yöndə iş getdiyi söylənilirsə, niyə uşaq hazırlaşdırmayan müəllimlərdən də vergi tutulmasın? Biliyi başının içində saxlayıb, xarab edir, millətin uşaqlarına öyrətmir! Ar olsun! Dövlət neçə il əziyyət çəkib universitetdə səni oxutdurubdur, əvəzini qaytarmalısan. Yoxsa universitetin yerində şadlıq sarayı açardıq, yaxşı toylar olardı.

Oxumaqdan söz düşmüşkən, "Azəravtoyol" ASC-nin bir müdiri vardır - Saleh Məmmədov. Onun təhsili mənə çox maraqlı gəldi. İdarənin saytında şefin tərcümeyi-halı qoyulubdur, orda yazılıb ki, Saleh müəllim 1958-ci ildə doğulub, 2015-ci ildə isə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Oxumaq müddətini də çıxanda belə məlum olur ki, Saleh müəllim "yurfak"a 53 yaşında giribdir, 57 yaşında oxuyub qurtarıbdır. Əhsən. Nə sözümüz ola bilər? Oxumaq heç vaxt gec deyildir. Arzu edək 73 yaşında bu asfaltın-zadın başını buraxıb prokuror işləsin. Bayram Məmmədov, Qiyas İbrahim kimi çoxlu əlləm-qəlləm, siyasi baxımdan destruktiv gənclər yaranıbdır, bunları tutub hərəsinə 10 il vermək lazım gəlir. Onsuz indi pensiya verə bilmirik, hökumət istəyir hamı ölənəcən işləsin, pensiya yaşı 100 olacaq. Saleh müəllim bu mənada uzaqgörəndir.

Qazdan yazdıq, qazvurandan yazdıq, qaldı məktəb özü. Şamaxıda, deyir, 71 məktəb var, bunlardan cəmi üçündə mərkəzi istilik sistemi qurulub. Qalanları hərəsi başını bir cür saxlayır, kimi dizel yandırır, kimi "ceyran" qaz peçi, bəziləri isə heç nə yandırmır, uşaqlar eləcə paltar-palaza bürünüb Azərbaycanın dünyaya necə Günəş kimi doğduğu haqda şən nağılları oxuyurlar. Təsəvvür elə, 71 məktəbdən düz 42-də odun sobası işlədirlər! Ta orda meşə qalar? Özü də hələ bu, nisbətən paytaxta yaxın rayondur, gör uzaqdakılar nə gündədir.

Şopenhauer deyib ki... Yaxşı, ta yazmıram, şamaxılı uşaqlardan ayıbdır.



# "Sadə vətəndaşların da içindən bir lider meydana çıxa bilər" - İqbal Ağazadə müxalifət-iqtidar münasibətləri haqqında

## Ümid Partiyasının sədri İqbal Ağazadə: "Mən neçə illər o Məclisin hansı səviyyədə, nə zaman və harada qaynadığını çox yaxşı görmüşəm, bilirəm"; "Müxalifətin olmamağı hansısa ölkə üçün heç də xoşbəxtlik gətirmir"

**Ümid Partiyasının sədri İqbal Ağazadə ölkədəki iqtisadi, sosial, siyasi durumla bağlı "Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında danışıb. Redaktor korpusunun suallarına cavabında İqbal Ağazadə məsələlərə özünəməxsus yanaşma tərzi sergiləyib, eyni zamanda təkliflərlə çıxış edib. Müsahibənin ikinci hissəsini təqdim edirik.**

*(əvvəli ötən sayımızda)*

***- Müxalifət niyə qiymət artımı ilə bağlı məsələlərdə ciddi rol oynamadı? Bəlkə müxalifət güclü olsaydı, ortaya mövqe qoysaydı hakimiyyət bu addımları fərqli atardı?***

- Hakimiyyətin yanlış siyasəti odur ki, ölkədə müxalifəti görməzlikdən gəlir. Hakimiyyət bütün gücünü müxalifəti tamamilə sıradan çıxarmağa yönəltdi. 2005-ci ildən başlayaraq ölkəyə böyük neft pullarının daxil olması nəticəsində iqtidar iqtisadi eyforiya üzərində siyasət qurdu. Güc, ölkədəki müxalifyönlü siyasi institutların məhv olunmasına doğru yönəldildi. Hətta sevinərək xoşbəxtcəsinə deyirdilər ki, artıq Azərbaycanda müxalifət yoxdur. Mən yazılarımın birində bu məsələ ilə bağlı yazmışdım ki, gəlin baxaq görək hansı ölkələrdə müxalifət yoxdur. Şimali Koreyada, Belarusda, Suriyada, Özbəkistanda müxalifət yoxdur. Bu ölkələr inkişaf edibmi? Bu gün hətta İranda, Rusiyanın özündə müxalifət var. Müxalifətin olmamağı hansısa ölkə üçün heç də xoşbəxtlik gətirmir. Necə ola bilər ki, Azərbaycan kimi bu qədər problemləri olan ölkədə müxalifət olmasın? Deməli, başqa gizli proses var. ABŞ kimi, Norveç kimi, Almaniya kimi yüksək həyat tərzi bərqərar olmuş ölkələrdə belə, müxalifət varsa, bizdə olmaması normal deyil. Hakimiyyət təmsilçiləri təəssüf ki, ironiya ilə deyirdilər ki, bizdə müxalifət yoxdur, süni şəkildə müxalifət yaradası deyilik ki, xalq bizi dəstəkləyir. Siyasi institutlar narazı elektoratın təşkilatlandırılması funksiyasından bilərəkdən kənarlaşdırıldı, müxalif təşkilatlar zəif duruma salındı və bu amil də məmurlar ordusunda arxayınçılıq yaratdı...

***- Siz bu cür təhlillə müxalifət texnoloqlarını, müxalifət liderlərini məsuliyyətdən tamamilə kənarda qoyursuz. Sizlərin heçmi suçu yoxdur?***

- Bizdə də suç çoxdur. Bizim səhvimiz həmişə onda olub ki, məğlub olarkən demişik ki, qarşı tərəf qeyri-demokratikdir. Amma biz özümüz-özümüzə sual verməmişdik ki, axı sən onun qeyri-demokratik olduğunu bilə-bilə prosesə qoşulmuşdun, nədən antidemokratik prosesə demokratik don geyindirdin? Yəni bizdə də günah var. Biz bütün situasiyalarda təşkilatçılıq funksiyasını yerinə yetirməli idik. Vəziyyət nə qədər ağır olsa da bunu etməliydik. Görünür, buna yetənəyimiz, bacarığımız, imkanlarımız və ya təşkilatlanma səviyyəmiz imkan verməyib...

***- Müxalifət düşərgəsi son qiymət artımından sonra da ortada demək olar ki, yoxdur. Siz dediniz ki, hökumət ağır durumdadır. Ancaq sizə elə gəlmirmi hökumətdən daha çox iflasda olduğu görünən müxalif düşərgədir?***

- İndi müxalif düşərgənin iflasından danışmaq yanlışdır, indi müxalif düşərgənin əslində oyanışı prosesi gedir. Çünki müxalif düşərgə bir qurumdan ibarət deyil, müxalif düşərgə xalqla işləyən, xalqdan dəstək almaq istəyən çoxsaylı təşkilatlardan ibarətdir. Onların bəzilərinin durumu bu gün iflas durumuna bənzəyə bilər, ancaq digərlərində oyanış dövrüdür. Bəlkə də müxalif düşərgədə bir az hərəkətlilik olsa, xalq dəstək verməyə başlayacaq. Bəzən deyirlər ki, xalq müxalifət liderlərinə inanmır və arxasınca gəlmir. Bu, yanlış fikirdir. Ekstremal vəziyyətlərdə, "bıçaq sümüyə dirənəndə" xalq həm ortada olan liderlərin arxasınca gedir, eyni zamanda ortaya elə adamlar çıxır, xalq elə adamların arxasınca gedir ki, əvvəllər heç ağıla gəlməzdi bu adam nə zamansa böyük bir prosesin lideri ola bilər. Sadə vətəndaşların da içindən bir lider meydana çıxa bilər, yaxud ortada olan partiya liderlərindən də prosesdə önə çıxa bilər. Geriyə qayıtmağa ehtiyac yoxdur. Ölkədə bu gün müxalifət var və geriyə qayıtmaq yox, irəli getmək düşüncəsindədir...

***- Amma hətta indi də bir araya gələ bilmirlər...***

- Bir araya gəlmişik. Elə bugünlərdə bir araya gəlmişik, ciddi müzakirələr aparmışıq...

***- Qazın və elektrikin tariflərinin qaldırılması ilə bağlı ADP qərargahındakı toplantını deyirsiniz?***

- Başqa tədbirlərdə, toplantılarda da olmuşuq, görüşlər olub...

***- Orada yığışdız, danışdız, dağılışdız. Proses başlamadı... Restoran görüşləriniz yoxmu? Əvvəllər "Asiman" restoranında tez-tez müxalifət liderlərinin görüşü olurdu, ətli yemək yeyirdiz.***

- Hələ bu tipli görüşlər yoxdur. Amma əslində nə fərqi var ki, ya restoranda toplandıq, ya başqa bir məkanda. Əsas məsələ odur ki, bir araya gəlirsən və müzakirə aparırsan.

***- "Asiman formatı"nı yenidən qurmaq təşəbbüsü göstərmək istəyirsinizmi?***

- Hələlik yox. Hesab edirəm ki, hələlik bütün tərəflər bərabər şəkildə prosesə yanaşmalıdırlar. Amma yenə də vurğulamaq istəyirəm ki, müxalifətin zəif olmasından və ya hakimiyyətin təbirincə desək, heç olmamasından qorxmalı olan müxalifət deyil, iqtidardır. Müxalifətin, demokratik institutların rolu artmalıdır və buna imkan verilməlidir ki, ekstremal vəziyyətlərdə dialoq, barış mühiti əldə etmək mümkün olsun, ekstremal vəziyyət yarananda bir tərəf dağıdıcı tərəfə çevrilməsin...

***- İqbal bəy, ekstremal vəziyyətdən danışırsınız, amma hakimiyyət rahat görünür. Ekstremal vəziyyətin yaranmaq ehtimalı nə dərəcədə realdır?***

- Vallah əgər hakimiyyət bu qədər problemlərin içərisində də rahatdırsa, eyvallah. Ölkədə problem çox ciddidir. Əslində hakimiyyət də bunun fərqindədir. Deyirsiniz ki, hakimiyyət rahat görünür. Bəs bugünlərdə Milli Məclisdəki narahatlıq yağan çıxışlar nədir?

***- Ora siyasi hakimiyyətin baş binası deyil, parlament adətən qaynamalıdır...***

- Xeyr. Milli Məclisdəkilərin hamısı hakimiyyət nümayəndələridir. Mən neçə illər o Məclisin hansı səviyyədə, nə zaman və harada qaynadığını çox yaxşı görmüşəm, bilirəm. Əgər hakimiyyət nümayəndələri bu gün müxalifət partiyalarının təmsilçiləri kimi danışırlarsa, Siyavuş Novruzov deputatlara xitabən "Neçə il idi tərifləyirdiniz, indi nə oldu", deyirsə, bu, artıq xəbər verir ki, vəziyyət heç də rahat deyil. Maliyyə naziri, Mərkəzi Bankın İdarə Heyətinin sədri və digər hökumət rəsmiləri elə bugünlərdəcə 2017-ci illə bağlı proqnozlar verdilər. O proqnozlar heç də rahat olmağa əsas verən, ürəkaçan proqnozlar deyildi. Ona görə də hakimiyyət hətta narahat deyilsə də bunun özü yanlışdır. Narahat olmalıdırlar. Biz ölkədə kataklizm istəmirik.

***- Gözlənilirdi ki, sentyabrda keçirilən referendumdan sonra vitse-prezidentlik institutu təsis olunacaq, o institutlar sırf iqtisadiyyatla bağlı olacaq, vitse-prezidentlər ölkədə iqtisadi islahatları həyata keçirəcək. Referendumdan xeyli zaman keçib, amma hələ ki vitse-prezidentlər təyin olunmayıb. Sizcə, nədən hələ təyinatlar olmadı?***

- Hazırkı vəziyyətdə nə fərqi var ki, ölkədə iqtisadi siyasəti ya vitse-prezidentlər həyata keçirdi, ya nazir həyata keçirdi. Kadr sadəcə planı gerçəkləşdirə bilər, ya uğurlu eləyə bilər, ya bir az uğursuz həyata keçirə bilər. Amma əvvəlcə bir planı ortaya qoymaq lazımdır. Mən düşünürəm ki, yoxdur o plan...

***- Eşitdiyimizə görə, o plan hazırlanır...***

- Heç bir ehtiyac yox idi hansısa xarici bir konsaltinq şirkətinə çox böyük məbləğdə vəsait ödəyib plan hazırlatmağa. İnanın ki, Azərbaycanın özünün daxilində ölkədəki hazırkı vəziyyətdən çıxış yollarını bilən mütəxəssislər kifayət qədərdir. Onlardan istifadə etmək lazımdır. Təvazökarlıqdan uzaq olsa da Ümid Partiyasının hakimiyyətə təqdim etdiyi antiböhran proqramı ciddi bir islahat proqramı idi. Bu cür proqramlardan yararlanmaq olmazdımı? Biz təklif etmişdik ki, bir-birini təkrarlayan nazirliklər, komitələr, digər qurumlar ləğv edilməli, bəziləri birləşdirilməlidir...

***- Yeri gəlmişkən, son günlər "Qaçqınkom"a ehtiyac olmadığı barədə fikirlərə rast gəlinir. Qeyd edilir ki, artıq belə bir quruma ehtiyac yoxdur, bu qurumun funksiyalarını hansısa bir nazirliyə həvalə etmək olar...***

- Ölkədə kifayət qədər başqa da komitələr, ASC-lər, QSC-lər, dövlət agentlikləri var ki, əslində milyonlarla vəsait xərcləyib onları saxlamağa ehtiyac yoxdur, onların işini müxtəlif nazirliklər, qurumlar həyata keçirə bilər. "Azərişıq", "Azərenerji", Energetika Nazirliyi mövcuddur. Bunların üçünü birində birləşdirmək olmazmı? Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Əks-kəşfiyyat Xidməti var. Bunların hamısı bir funksiyanı yerinə yetirir. Ona görə vahid qurum halında birləşdirmək olmazmı? Gömrük Komitəsi, Vergilər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi fəaliyyət göstərir. Bunları Maliyyə Nazirliyinin tərkibində birləşdirmək olmazmı? İqtisadiyyat və Sənaye Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyini vahid qurumda birləşdirmək olmazmı? Xəzər Dəniz Gəmiçiliyi, Azəravtoyol, Azərbaycan Dəmiryolları, Nəqliyyat Nazirliyi mövcuddur. Bunların hamısını bir qurumda birləşdirmək olmazmı? Olar və bu islahatlar dövlət büdcəsinin yükünü də xeyli azaldar.

***- Deputatlar Çingiz Qənizadə və Hikmət Babaoğlu bildiriblər ki, dövlət "Qaçqınkom"a qaçqınlar üçün böyük miqdarda vəsaitlər ayırır və həmin vəsaitlərin heç də hamısı qaçqınlara gedib çatmır, mənimsənilir. Ona görə də həmin vəsaitlər "Qaçqınkom"a verilmədən birbaşa məcburi köçkünlərə çatdırılmalıdır. Birbaşa eləmək mümkün deyilmi?***

- Birbaşa eləmək mümkün deyil. Kim bunu iddia edirsə, kifayət qədər məlumatlı deyil və yanlış söyləyir. Əgər ölkənin 1 milyon 300 min nəfər vətəndaşı üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, onun da tərkibində Dövlət Sosial Müdafiə Fondu yaradılırsa, 1 milyondan yuxarı məcburi köçkünün problemləri ilə məşğul olmaq üçün ayrıca bir qurum olmalıdır...

***- Yaradılan qurumda isə yeyinti olduğu deyilir...***

- Yeyinti məgər təkcə "Qaçqınkom"da var? Hansı hökumət qurumunda yeyinti yoxdur? Yeyinti ilə bütün qurumlar məşğuldursa, sabah "Qaçqınkom" yox, başqa qurumlar həmin vəsaitləri yeyəcək. Yeyinti varsa, yeyintiyə yol verənləri dəyişmək lazımdır, yeyinti olan yeri bağlamaq yox. Diş ağrıyırsa, dişi çəkərlər, ya da müalicə edərlər, başı kəsib atmazlar. Deyirsiniz ki, "Qaçqınkom" olmasın...

***- İqbal bəy, biz demirik...***

- Hər kim deyirsə mənim cavabım o deyilənlərədir. "Qaçqınkom" sədri Əli Həsənov hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasının sədr müavinidir, baş nazirin müavinidir. Kimlərsə, hansısa deputatlarsa Əli Həsənovun yaxşı işləmədiyini hesab edirlərsə, onda açıq desinlər ki, Əli Həsənov belədir və onu vəzifədən uzaqlaşdırın. Yoxsa ki, "Qaçqınkom" belə getdi, yeyinti belə getdi, məcburi köçkünlərin statusu belə getdi söz-söhbətlərinə ehtiyac yoxdur.

Azərbaycanın bir nömrəli məsələsi, problemi Qarabağ məsələsidir, bir milyondan artıq vətəndaşının Qarabağın işğalı nəticəsində məcburi köçkün olmasıdır. Qarabağı azad etmişik ki, məcburi köçkünlərin statusu ləğv edilsin?! Məcburi köçkün problemi məgər həll olunub? Məcburi köçkün problemi o zaman həll olunmuş sayılacaq ki, Qarabağ azad ediləcək və o insanlar öz yurdlarına qayıdacaqlar. Bu baş verməyibsə, status ləğv oluna bilməz. Qarabağla bağlı beynəlxalq müstəvidə gedən danışıqlarda, proseslərdə Azərbaycanın bir milyondan artıq məcburi köçkün vətəndaşının olduğu bir ciddi hüquqi məsələ kimi, sübut qoyulur. "Qaçqınkom" isə məcburi köçkün, Qarabağ problemi ilə bağlı danışıqlarda, proseslərdə iştirak edir.

***- Neftin qiyməti son zamanlar bir qədər artıb. Neftin qiyməti neçəyə qalxsa Azərbaycan iqtisadi, maliyyə sarıdan rahatlaya bilər?***

- Azərbaycanın problemləri təkcə neftin qiymətinin aşağı düşməsindən qaynaqlanmır ki, yalnız neftin qiymətinin bahalaşması ilə də problemlər həllini tapsın. İkincisi, neft bahalaşsa belə, neft hasilatı xeyli dərəcədə, hətta deyərdim təxminən yarıbayarı azalıb. Getdikcə də azalır. Mən rəsmi rəqəmlərə əsaslanıb bunu deyirəm. Birdəfəlik bilmək lazımdır ki, artıq neft erası bitib. Artıq postneft dövrünü yaşamağa başlamışıq.

***- Postneft dövrünün başlandığını prezident də çıxışlarında dəfələrlə deyib...***

- Bəli. Biz, sadəcə olaraq, yeni imkanlar axtarmalıyıq. Özü də bunu indi axtarmamağa məcbur qalmamalıydıq. Onu neft pulları ölkəyə axanda axtarıb tapmaq və tətbiq etmək lazım idi. Belə olsaydı, bu gün neftin qiymətinin aşağı düşməsinin maliyyə-iqtisadi durumumuza indiki şəkildə təsiri olmazdı. Neft pullarını ciddi gəlir gətirən işlər, sahələr yaradılmasına qoymaq lazım idi ki, indi oradan gələn gəlirlər azalan neft gəlirlərini əvəz etsin. Təəssüf ki, neft pulları daha çox gəlir gətirməyən işlərə sərf edildi.

***- İqbal bəy, parlamentə düşə bilmədiniz, deputat ola bimədiniz. Buna görəmi belə sərt danışırsınız? İndi deputat olsaydınız da belə danışardınız?***

- Belə danışmağımın deputat olmamağımla qətiyyən əlaqəsi yoxdur. Mən parlamentdə olduğum dövrlərdə də problemlərlə bağlı bu cür danışırdım. Siz stenoqramlara baxsanız görərsiniz ki, mən büdcə müzakirələri vaxtı, hökumətin hesabatları zamanı indikindən də sərt çıxışlar edirdim və təkliflərimi də verirdim.

❑ Hazırladı: Etibar SEYİDAĞA



**"Hakimiyyət nümayəndələri bu gün müxalifət partiyalarının təmsilçiləri kimi danışırlarsa, Siyavuş Novruzov deputatlara xitabən "Neçə il idi tərifləyirdiniz, indi nə oldu" deyirsə, bu, artıq xəbər verir ki, vəziyyət heç də rahat deyil"**



**"Əgər hakimiyyət bu qədər problemlərin içərisində də rahatdırsa, ey valah..."**

**"Ekstremal vəziyyətlərdə, "bıçaq sümüyə dirənəndə" xalq həm ortada olan liderlərin arxasınca gedir, eyni zamanda ortaya elə adamlar çıxır, xalq elə adamların arxasınca gedir ki, əvvəllər heç ağıla gəlməzdi bu adam nə zamansa böyük bir prosesin lideri ola bilər"**

**"Bizdə də suç çoxdur, bütün situasiyalarda təşkilatçılıq funksiyasını yerinə yetirməli idik"**





**"Necə ola bilər ki, Azərbaycan kimi bu qədər problemləri olan ölkədə müxalifət olmasın? Deməli, başqa gizli proses var"**

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016



# Bir-birimizi yaşamağa qoymayaq

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Bu bahalaşmanın, həddən ziyadə yüklənmənin fonunda hamı hökuməti qınayır. Haqlıdılar da. Qınamaq tam təbiidir. Qanunları çıxaran, qiymət artımını dəstəkləyən, dövlətin borclarını bu və ya digər formada millətin belinə yıxan onlardır. Amma və lakin. Kimin evində böyük güzgü varsa, bir zəhmət onun qabağında dayansın və diqqətlə özünə baxsın. Son illərdə gəldiyim əsas qənaət odur ki, bizi bizdən, özümüzdən, çevrəmizdən qeyri heç kim yükləmir. Onlar yükləyir, biz yüklənmək zorunda qalırıq. Gün gəlir, dövran keçir, biz də zamanında olan bu yüklənmənin əvəzini onlardan hansısa formada çıxırıq. Sanki bir-birimizin həyatına, qazandığımız qəpik-quruşlara qənim kəsilmişik.**

Dünyanın ancaq inkişaf etməmiş ölkələrində toy, yas mərasimlərini bu qədər təmtəraqla keçirirlər. El adəti, millət ənənəsi deyib, insanlar nə borcların altına girirlər, xəbəriniz varmı? Əminəm ki, var. Çünki hamınızın ətrafında bu sayaq adamlar çoxdur. Ancaq bizim ellərdə bir qızı bir oğlanla evləndirənə qədər yaxın-uzaq ətraf bəs deyincə soyulur. Hesab edək ki, ilk addım məsrəfsiz keçirildi, elçilik edildi, həri alındı və sair. Baxmayaraq ki, bəzi bölgələrdə elçilik də qonaqlıq kimi keçirilir, əməlli-başlı süfrə açılır. Nəsə, şirin çay içildisə, növbəti mərhələ dəf-daraqlı nişandır. Nişan prosesinin həm qız, həm oğlan tərəfə nə məsrəflər hesabına başa gəldiyini anlatmağıma ehtiyac yoxdur. Mən deyim xonçalar, siz deyin, nişan üçün tutulan restoranın məsrəfi. Gəlinin qır-qızılı, geyim-gecimi, yaxın qohumlarına alınan hədiyyələr. Sonra gəlir növbəti mərhələlər: nübar xonçaları, paltarbiçdi, xınayaxdı, toy, üzəçıxdı, boygörməsi, üçgünlük, gəlinin qırxgünlüyü, ayaqaçdı, qonaqçağırma... Başlı-başına epopeyadır, vallah. Hələ toydan 9 ay sonra bunun uşaq dünyaya gətirməsi var, o uşağın görməsi, sonra həmin uşağın 1 yaşının restoranda keçirilməsi. Bütün bunlar uzaqdan şirin, xoş bir hadisə kimi görünə bilər, amma çəkənə sor. Hər mərasimin özü duz yükü kimi ağır məsrəfli, ona qatılanların xərc-borcu isə onlardan da ağır.

Düşünün, hansısa restoranın sahibi bir gündə dünyanın pulunu qazanacaq deyə biz özümüzə də, özümüzlə birgə 300-400 nəfərə də zülm veririk. Əynimizdən-boğazımızdan kəsirik, dünyanın pulunu veririk toylara. Bir-birimizi az qala abırdan sala-sala "filan qədər elə stol puludur, ayıb deyilmi bu qədər pul yazdırmaq? Bir az artıq yazdıraq" deyib... bir də baxırıq ki, ayın sonuna iki əl, bir baş qalmışıq. Oğlumuzu sünnət etdirmişik deyə biabırçı şəkildə 300 nəfəri başımıza yığıb, buna görə pul yığmağımız isə ayrı bir faciənin mövzusudur.

Bunların heç biri xoşbəxtlik şərti deyil, əziz azərbaycanlılar. Siz deyinə-deyinə, borcdan-xərcdən əzilərək övladlarınız üçün bütün bunları edirsizsə, ətrafınıza yığışan adamlar da hansısa formada öz büdcələrini sıxırlar, əziyyətə düşürlər. Sonucda hamı narazı olur, amma ortada süni bir təbəssüm dolaşır. Doğrudanmı kimlərəsə elə gəlir ki, qız evinə aparılan xonçaların sayında, onun içindəkilərdədir xoşbəxtliyin açarı? Gerçəkdənmi şadlıq sarayında heç kimin yemədiyi təamlarla dolu olan menyunun bahalılığıdır sizi başıuca edən? Bu komplekslərdən qurtulub, özünüzü də, ətrafınızı da xoşbəxt etmək sizin əlinizdə deyilmi? Özünüz nə qədər tez dəyişsəz, düzəlsəz, övladlarınızı da o cür tərbiyə edəcəksiz. Məsələn, qızınız anlayacaq ki, ona gətirilən 5-10 min manatlıq qızıl dəsti xoşbəxt olmanın açarı deyil. Oğlunuz dərk edəcək ki, 50 manatlıq menyusu olan restoranda toy etməyəndə də ona "pis oğlan" deməyəcəklər. Toyu mitinq kimi keçirmək əvəzinə, 50-70 nəfərlik kiçik banketlər formasında, ən doğma adamların iştirakı ilə etmək həm sadə, həm mehriban, həm də məsrəfsiz proses deməkdir...

Toya getmək təkcə ora nəmər yazdırmaqla yekunlaşsa bəlkə də dözmək olar. Qadınların toy hazırlığı gözəllik salonu, geyim mağazası (dərzi də ola bilər) arasında ciddi xərc bölgüsü deməkdir. Yeni paltar, saç düzümü, üz bəzədilməsi... Elə təkcə bir qadının toy üçün salon xərci 30-40 manatdır. Mən insaflı saç ustalarını nəzərdə tutub bunu deyirəm.

İndi ölkəmizdə toy mövsümü başlanıb. Hər ailənin evində minimum 5-6 dəvətnamə var yaxın bir-iki ay üçün. Bahalıq bir tərəfdən, bu mükəlləfiyyət xarakterli mərasimlər də o biri tərəfdən. Onsuz da çətindir, barı biz bir-birimizin həyatını çətinləşdirməyək... Nəfəslik açın bir-birinizə. Komplekslərdən qurtulun, özünüz də rahatlaşın, başqalarına da dinclik verin... Formasını yuxarıda yazdım.

# Mənzillərimizi oğrulardan necə qoruyaq?

## Ölkədə iqtisadi durum çətinləşdikcə, evlərin yağmalanması halları artır

**Öncə statistikaya nəzər salaq: Daxili İşlər Nazirliyi(DİN) Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin 2016-cı ilin 1-ci yarımilliyinə uyğun açıqlamasına görə, cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə respublika daxili işlər orqanlarının fəaliyyətinin nəticələrinə dair təhlilinə görə, hesabat dövründə mülkiyyət əleyhinə cinayətlərdən oğurluqlar 1140, dələduzluq cinayətləri 710, soyğunçuluq 24, quldurluqla bağlı cinayətlər 12 fakt artıb.**

Ölkədə iqtisadi durum ağırlaşdıqca oğruların da sayı artmaqdadır. Ekspertlər hesab edirlər ki, işsizlərin sayı artdıqca, cinayətlər də çoxalır. Bunun üçün insanlar tədbirlərini artırmalıdırlar...

Bəs evlərimizi oğrulardan necə qoruyaq? Bunun üçün hansı tədbirləri görmək lazımdır?

Qərb araşdırmalarına görə, dünyada əsasən oğrular yay aylarında aktivləşirlər. Bunun da səbəbi odur ki, bu aylarda insanlar tətilə çıxıb, mənzillərini müəyyən bir zaman kəsiyində tərk edirlər. Həmin zaman isə oğrulara fəaliyyətə keçmələri üçün əlverişli məqama çevrilir.

Azərbaycanda da statistikalara nəzər saldıqda, oğurluq hallarının daha çox yay aylarında olduğunu görmək olar. Lakin biz ilin istənilən zamanında oğrulardan hansı yöntəmlərlə qorunmaq yollarını qeyd edəcəyik.

Araşdırmalarda qeyd olunur ki, ilk olaraq evi tərk etdiyiniz zaman kənardan öz mənzilinizə baxmalısınız. Diqqət etmək lazımdır ki, pəncərədən hər hansı bir elektron əşya, bahalı bəzək-düzəklər görünməsin. Lakin bütün pərdələri də qapatmaq olmaz. Bunun özü də evdə heç kimin olmadığına bir işarədir. Bu ən sadə və ilkin tədbirlərdir. Həmçinin evdən çıxan zaman mənzildəki hər otağın qapısını tək-tək kilidləmək lazımdır. Araşdırmalar göstərir ki, oğruların 80 faizi mənzilə girdikləri zaman öncə yataq otağını axtarırlar.



Ona görə də dəyərli əşyaları bu otaqda gizlətmək məsləhət görülmür.

Bildirilir ki, oğrular binanın bir blokuna daxil olub, bütün mənzillərə reklam bukleti qoyurlar. Hansısa qapıda bir neçə gün buklet götürülməmiş qalsa, bu, onlara işarə verir ki, evdə kimsə yoxdur. Nəticə isə bəlli olur.

### Evin işıqlandırılması

Müasir dövrdə evin işıqlandırılması üçün xüsusi qurğular var. Belə ki, quraşdırılmış xüsusi cihaz, hava işıqlandığı zaman mənzildəki lampanı söndürür, qaranlıq düşən zaman isə yandırır. Bu isə evdə kiminsə olduğu təəssüratını yaradır. Məsləhət görülür ki, evdə olmadığınız zaman bu qurğudan mütləq istifadə edin. Bəzi siqnalizasiya sistemi var ki, onlara həm də xüsusi mesaj qoymaq olur. Belə ki, zəng basıldığı zaman avtomatik olaraq, qurğudan mənzil sahibinin evdə olmadığı bildirilir. Ekspertlər məsləhət bilirlər ki, bu funksiyadan istifadə etmək doğru deyil. Çünki bunun özü oğrulara bir işarədir.

Araşdırmalara görə, evə girən nabələd oğru, çox zaman itirməyə risk etmir. Çalışır ki, qısa vaxt ərzində bəzi dəyərli əşyaları götürüb, mənzili tərk etsin. Ona görə də bir daha qeyd edirik ki, qapı və pəncərələrin möhkəm bağlanmasına önəm vermək lazımdır.

Araşdırmalara görə, oğrular əsasən internetdə özlərini müxtəlif sahə üzrə usta kimi təqdim edirlər. Daha doğrusu, onlar öz elanlarını müxtəlif xidmət saytlarında yerləşdirirlər. Ona görə də evə usta çağıran zaman da bunu internet üzərindən etmək məsləhət görülmür. Xüsusilə də qapı ustaları çağıran zaman diqqətli olmaq lazımdır. Bundan əlavə, səyyar satıcılar, dilənçiləri də indiki zamanda mənzilə buraxmaq məsləhət bilinmir.

### Dərhal polisə xəbər verilməlidir...

Aldığınız bütün qabaqlayıcı tədbirlər oğrular tərəfindən dəf edilibsə, o zaman evə oğrunun girdiyini anlayan kimi polisə ("102" xidmətinə) zəng etmək lazımdır. Bu zaman əsla evdəki əşyalara toxunmaq olmaz. Çünki polis oğrunu ilk olaraq buraxdığı izlər əsasında müəyyənləşdirir. Qeyd edək ki, DİN-in Baş Mühafizə İdarəsinin respublikanın bütün şəhər və rayonlarında bölmələri fəaliyyət göstərir. Bu qurumla müvafiq müqavilə bağlandıqdan sonra mənzil və obyektlərdə xüsusi təhlükəsizlik sistemləri quraşdırılır. Belə müasir texniki vasitələrin "hissiyyatı" o dərəcədə yüksəkdir ki, mənzildə, hər hansı obyektdə baş verən ən cüzi dəyişiklikləri belə qeydə ala bilir.

Verilən məlumata görə, mühafizə olunan obyektə kənar şəxslərin müdaxiləsi zamanı siqnalizasiya sistemlərindən mərkəzləşdirilmiş mühafizə mərkəzinə həyəcan siqnalı daxil olur. Məlumat dərhal ərazidə xidmət aparan polis naryadlarına ötürülür. "Həyəcan siqnalı"nın daxil olmasından polis əməkdaşlarının hadisə yerinə gəlmələrinə qədər olan vaxt adətən beş dəqiqədən artıq çəkmir. Nəticədə isə oğru hadisə yerində cə tutulur.

Əli RAİS

# Nikaha girmək istəyən 10 minə yaxın şəxsdə talassemiya daşıyıcılığı aşkarlandı

**Azərbaycanda nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsi tətbiq olunduğu vaxtdan bu ilin noyabr ayının sonuna qədər müayinədən 219 256 nəfər keçib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən "Report"a verilən məlumata görə, müayinədən keçən 9 892 nəfərdə talassemiya daşıyıcılığı, 828 nəfərdə sifilis, 147 nəfərdə isə QİÇS aşkar olunub.

Qeyd edək ki, "Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Qanunun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiqi ilə əlaqədar, 1



iyun 2015-ci il tarixindən etibarən nikaha daxil olmaq istəyən vətəndaşlar mütləq tibbi müayinədən keçməlidirlər. Nazirlər Kabineti tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydaları təsdiqlənib, tibbi müayinə olunmalı xəstəliklərin siyahısı müəyyənləşdirilib. Bu məqsədlə səhiyyə müəssisələrində zəruri şərait yaradılmışdır.

Tibbi müayinə və məsləhətlər nikaha daxil olmaq istəyən şəxslərin və ya onlardan birinin yaşayış yeri üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş dövlət və bələdiyyə tibb müəssisəsində həyata keçirilir. Tibbi müayinənin keçirilməsi və məsləhətlərin verilməsi pulsuz aparılır.

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Həmsədr ölkələrin XİN başçılarından Bakı və İrəvana şifrəli mesaj

## Ekspertlərə görə, Rusiyanın problemin həllinə baxışı kardinal dəyişikliyə uğramayıb, sadəcə, taktika dəyişib; Qərb də öz oyununu oynayır; Bakı isə Minsk Qrupunun dəyişdirilməsinin tərəfdarı deyil...

**Almaniyanın Hamburq şəhərində keçirilən ATƏT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Rusiya və Ermənistan XİN başçılarının görüşü olub. Sergey Lavrov və Edvard Nalbəndyan beynəlxalq arenada Rusiya-Ermənistan qarşılıqlı fəaliyyətinə dair bir sıra məsələləri və Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə ediblər.**

Həmsədrlərin ciddi cəhdlərindən sonra Azərbaycan və Ermənistanın xarici siyasət idarələrinin rəhbərlərinin görüşünü təşkil etmək də mümkün olub. Qeyd edək ki, Elmar Məmmədyarov görüşə hazır olduğunu desə də, erməni tərəfdən müsbət reaksiyanın olmaması səbəbindən bu təmasın baş tutması sual altında idi.

Əslində bu davranış hərbi ritorikaya üstünlük verən İrəvanın hazırkı mərhələdə Qarabağ münaqişəsinin tənzimlənməsində maraqlı olmadığını bir daha göstərir. Elə işğalçı ölkənin prezidenti Serj Sərkisyanın işğal altındakı Azərbaycan ərazilərinə üç günlük (!) səfər etməsi erməni həyasızlığının bariz nümunəsidir. Düzdür, erməni toplumu Qarabağa əsgər göndərməkdən imtina edir, müxtəlif yollarla övladlarını hərbi xidmətdən yayındırmağa çalışır. Elə bugünlərdə erməni mətbuatı böyük miqdarda rüşvətin qarşılığında hərbi xidmətdən yayınma halları ilə bağlı faktlardan bəhs edib. Bir tərəfdən Azərbaycan ordusunun layiqli müqaviməti ilə üzləşən, digər tərəfdən elə Ermənistan ordusundakı özbaşınalıqlar səbəbindən itkilər verən ermənilər anlayırlar ki, özgə torpaqları onlara xoşbəxtlik gətirməyəcək.

Sərkisyanın Qarabağa son səfəri beynəlxalq ictimaiyyətə güc nümayişi kimi təqdim olunsa da, əslində o, Qarabağdakı işğalçı erməni hissələrindəki acınacaqlı durumun aradan qaldırılması, onlara mənəvi-psixoloji dəstək vermək məqsədilə işğal zonasına gəlib. Bir qayda olaraq Sərkisyanın Dağlıq Qarabağa və işğal altındakı digər ərazilərə gəlməsi təxribatları stimullaşdırır, düşmən ordusu aktivliyini artırır.

Qarabağ cəbhəsindəki növbəti qarşıdurmanın daha böyük fəlakətlərə səbəb olacağını anlayan beynəlxalq təşkilatlar problemi həll edə bilməsələr də, hansısa səviyyədə tərəfləri bir araya gətirməyə çalışırlar. Belə ki, Azərbaycan və Ermənistanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyəti arasında görüş barədə ilkin razılaşmalar əldə edilib. Ancaq S.Sərkisyanın hərbi geyimdə işğal zonasına səfər etməsi, hərbi hissələrdə olması İrəvanın danışıqlar yolu ilə çözümə nə dərəcədə "sadiq olduğunu" göstərir. Bu mənada danışıqlar, sadəcə, görüntü məqsədi daşıyır.

**Elə ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin XİN rəhbərləri Sergey Lavrov, (Rusiya), Con Kerri (ABŞ) və Jan-Mark Eyronun (Fransa) Dağlıq Qarabağ münaqişəsinə dair birgə bəyanatı da simvolik məna kəsb edir.** "Biz, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə tam sadiq qalırıq. Aprel ayında qoşunların təmas xəttində baş vermiş gərginliyi nəzərə alaraq, biz davam edən silahlı insidentlərdən, ağır silahlardan istifadədən, o cümlədən güc tətbiqi barədə yayılan məlumatlardan narahatlığımızı bildiririk və güc tətbiqi və ya güc tətbiqi təhlükəsini qətiyyətlə pisləyirik. Bu münaqişənin hərbi yolla həlli yoxdur və dinc əhalinin öldürülməsi və yaralanması yolverilməzdir"-bəyanatda deyilir (APA). **Amma bəyanatda Ermənistanın işğala son qoyması ilə bağlı tələbi yazmaq yenə də "yaddan çıxıb".** "Biz Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə tərəflər arasında itkin düşmüş şəxslər barədə məlumat mübadiləsinin həyata keçirilməsində irəliləyişi alqışlayırıq" - yazan həmsədr ölkələr Kəlbəcərdə girov götürülən mülki şəxsləri 2 il yarımdır Şuşa həbsxanasında saxlayan işğalçını nəinki qınamayıb, hətta alqışlayıb da. XİN başçıları ardınca bəyan edib: "Biz tərəflərə xatırladırıq ki, münaqişənin həlli Helsinki Yekun Aktının əsas prinsiplərinə, yəni: güc tətbiq edilməməsi, ərazi bütövlüyü, bərabər hüquqlar və xalqların öz müqəddəratını təyin etməsi və həmsədr ölkələrin prezidentləri tərəfindən təklif olunan əlavə elementlər, o cümlədən Dağlıq Qarabağ ətrafında olan rayonların Azərbaycanın nəzarətinə qaytarılması; Dağlıq Qarabağın onun təhlükəsizliyinə və özünüidarəetməsinə təminat verən aralıq statusunun müəyyənləşdirilməsi; Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin yaradılması; gələcəkdə Dağlıq Qarabağın məcburi hüquqi qüvvəyə malik iradə ifadəsi yolu ilə yekun statusunun müəyyənləşməsi; bütün məcburi köçkünlərin və qaçqınların öz əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ; və sülhməramlı əməliyyatlar da daxil olmaqla, beynəlxalq təhlükəsizlik təminatına əsaslanmalıdır. Bizim ölkələrimiz tərəflərlə sıx əməkdaşlığı davam etdirəcək və biz tərəfləri vasitəçi kimi Minsk Qrupu həmsədrlərinin yardımından tam istifadə etməyə çağırırıq".

Amma diplomatlar yenə unudub ki, görüşdən imtina edən tərəfin, işğalçı ölkənin başçısı elə bu ərəfədə Qarabağa qanunsuz olaraq gəlib və işğalı davam etdirmək siyasətinə sadiqdir. Bu mənada nə qədər ki, tərəflər arasında bərabərlik işarəsi qoyulacaq, bölgədə ədalətli sülh bərqərar olmayacaq, həmsədrlərin qorxduğu hərbi toqquşma riski də qalacaq.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, həmsədrlərin bəyanatında yeni heç nə yoxdur:** "Madrid planında nə varsa, həmsədr dövlətlərin Hamburq bəyanatında yer alıb. Bu bəyanatda bircə maddədən başqa bütün digər maddələr Azərbaycan üçün münasibdir. Həmin maddə də "gələcəkdə Dağlıq Qarabağın məcburi hüquqi qüvvəyə malik iradə ifadəsi yolu ilə yekun statusunun müəyyənləşməsi" ifadəsindən ibarətdir. Bu maddəni biz belə görürük: "Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ öz statusunu müəyyənləşdirə bilər". Ümumiyyətlə, beynəlxalq vasitəçilərin "ərazi bütövlüyü" ilə "xalqların öz müqəddəratını təyin etməsi" prinsiplərini bərabər tutması Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirməyəcək".

# "Putin 7 rayonun geri qaytarılmasını Ermənistandan tələb edir"

## Qafar Çaxmaqlı: "Bir şərtlə ki, Azərbaycan Dağlıq Qarabağda azərbaycanlı və erməni qaçqınların geri dönməsindən sonra bir referendum keçirsin"

**Son zamanlar Türkiyə və Rusiya arasındakı danışıqlarda Qarabağ məsələsinin prioritet olmasına dair yanaşmalar üstünlük təşkil etməyə başlayıb. Hesab olunur ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun son Türkiyə səfəri, bu səfərdən dərhal sonra onun türkiyəli həmkarı Mövlud Çavuşoğlunun Bakı, onun ardınca isə baş nazir Binəli Yıldırımın 3 günlük Moskva səfərlərində Qarabağ məsələsi də əsas müzakirə mövzularından biri olub.**

Rusiyanın "Rosbalt" nəşrinin analitiki İrina Corbenadzenin "Qarabağı Hələbə dəyişdiririk?" başlıqlı məqaləsində də bir sıra ümidverici fikirlərə yer verilib ki, artıq bununla bağlı "Yeni Müsavat" oxucuları məlumatlandırıb. Politoloq Engin Özer "Türkiyə Əsədin Hələbə nəzarət eləməsinə mane olmayacaq, Rusiya isə öz növbəsində Qarabağ probleminin Bakının xeyrinə həllinə yardımçı olacaq"-deyib. Rusiyadakı Müasir Türkiyəni Öyrənmə Mərkəzinin rəhbəri Yuri Mavaşevin də bununla bağlı fikirləri var. "Əgər Moskva və Ankaranın Qarabağ və Hələbə "əl qatması" haqda informasiya doğrudursa, o zaman bu sövdələşməni böyük işarəli saymaq olar"-məqalədə deyilir.

**Azərbaycan-Erməni Araşdırmaları Mərkəzinin və Türkiyənin Ərciyəz Universiteti Ermənişünaslıq bölümünün rəhbəri, professor Qafar Çaxmaqlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, istər Moskvada, istərsə Ankara və Bakıda Rusiya ilə açıq və gizli danışıqlarda Qarabağ məsələsi gündəmə gətirilir:** "Hətta Türkiyənin xarici işlər naziri Çavuşoğlu bir neçə dəfə bəyanat vermişdi ki, əgər Ermənistan işğal etdiyi Azərbaycan ərazilərindən heç olmasa birindən çıxsa və onu bir jest olaraq Azərbaycana təhvil versə, Türkiyə Ermənistanla sərhədlərin açılmasına baxa bilər. Bu, Türkiyənin Ermənistana böyük güzəşti ola bilər. Amma Ermənistan bu fikrə heç bir reaksiya verməyib. Rusiyada da bəzən 3, bəzən isə 5 rayonun təhvil verilməsindən bəhs ediblər. Bunlar hamısı nəbzi yoxlamaqdan başqa bir şey deyil. Prinsipial heç bir razılaşmalar olmayıb".

**Q.Çaxmaqlı qeyd etdi ki, Rusiyadakı politoloqlar son zamanlar Bakı-Moskva-Ankara siyasi "trafik"ində nələr danışıldığını bilə bilməzlər, bunu yalnız təxmin edə bilərlər:** "Qarabağı Hələbə dəyişmək kimi bir anlaşmanın olmasına mən inanmazdım. Hələbin məsələsi artıq həll edilib. Məncə, Qarabağ danışıqlarının Hələblə heç bir əlaqəsi yoxdur. Qarabağ məsələsinin həlli üçün təkliflər ayrı bir paketdədir. Belə görünür ki, Rusiya da onu Minsk Qrupu çərçivəsində davam etdirəcək. Rusiya bu məsələdə əsas "açarı" əlində saxlasa da, digər həmsədr dövlətlər onu tamamən Rusiyanın ixtiyarına verməzlər. Bununla belə, Moskvanın Qarabağ nizamlanması ilə bağlı son zamanlar artan təşəbbüsünün Ankara tərəfindən dəstəklənməsini deyən Yuri Mavaşev haqsız deyil. Hamı bilir ki, Ermənistan bu əraziləri işğal edib. Ermənistan özü bunun adını "azad edilmiş ərazilər " qoysa da, qəbul edir ki, bu ərazilər Azərbaycana aiddir. Üstəlik, İrəvan da istəyir ki, Dağlıq Qarabağın "müstəqilliyi"nin təmin olunması durumunda bu əraziləri geri qaytarsın. Problem də elə bundadır. Mən ona da inanmıram ki, sabah Rusiya "bu ərazilərdən çəkil" əmrini versə, Ermənistan heç bir şey demədən buradan çıxıb gedəcək. Bəli, prezident Putin Dağlıq Qarabağın çevrəsindəki 7 rayonun qaytarılmasını Ermənistandan tələb edir. Bir şərtlə ki, Dağlıq Qarabağda azərbaycanlı və erməni qaçqınların geri dönməsindən sonra bir referendum keçirilsin".



**Ekspertə görə, paket həll variantında bunlar yer alır, Azərbaycan isə buna direniş göstərir:** "Dövlət başçısı İlham Əliyev belə bir bəyanat vermişdi ki, həmsədrlər Azərbaycana problemin həlli ilə əlaqədar paket həllini qəbul etdirməyə çalışır və Azərbaycanı buna məcbur etmək istəyirlər. Bu variantı qəbul etmək Dağlıq Qarabağı itirmək demək olduğundan, danışıqlar faktiki olaraq dalana dirənib. Belə asanca Hələbin yerinə Qarabağdan vaz keçmək məntiqli deyil".

**Q.Çaxmaqlıya görə, "Rosbalt"dakı məqalə bir nəfərin orijinal görünmək fəaliyyətindən başqa bir şey deyil:** "Onların iddia etdikləri kimi, məsələnin Azərbaycanın xeyrinə həll olunması kimi bir məsələ ortada yoxdur, ola da bilməz. Rusiya bu yaxınlarda Ermənistanla hava qüvvələrini birləşdirmə kimi bir addım atdı və bu o deməkdir ki, Azərbaycan öz ərazisində aprel döyüşlərinə bənzər bir addım atmasın. Minsk Qrupunun fəaliyyətinə hər zaman etiraz edən Türkiyə buna ciddi etiraz etmədi. Halbuki bu addım onun da dövlət təhlükəsizliyinə bir təhdid idi. Türkiyə-Rusiya danışıqlarında, məncə, əsasən iqtisadi "krizis"dən çıxmaq üçün tədbirlər ən aktual danışıqlar predmetidir. Rusiya mətbuatında belə yazıların yazılması isə məqsədli şəkildə edilir, diqqəti əsas məsələdən yayındırmaq məqsədi güdür".

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016



# Deputatların “müxalifətçi damarı”nın tutmasının səbəbləri

## Mehman Əliyev: “Bizimlə oyun oynayırlar”

**Azərbaycanda qaz və işığın bahalaşmasından sonraya təsadüf edən parlamentin iclaslarında deputatların Tarif Şurasını, məmur-oliqarxları hədəfə alan fikirlərinin şahidi olduq. Maraqlıdır ki, bahalaşma əleyhinə ən çox çıxış edənlər iqtidaryönlü deputatlar oldular.**

Hər bir deputatın çıxışı mətbuat və sosial şəbəkələrin əsas müzakirə mövzusuna çevrildi. Onların dediklərinə reaksiyalar da birmənalı olmadı. Kimisi şəxsi bizneslərinə görə deputatların “müxalifətçi damarı”nın tutduğunu iddia etdi, kimisi bahalaşma əleyhinə sərt çıxışlar edənlərin arxasında hakimiyyətin yüksək ranqlı bəzi məmurlarının dayandığını düşündü. Hansı ki, bahalaşma həmin məmur-oliqarxların biznes maraqlarına da zərbədir. Həmçinin belə iddia da var ki, həmin deputatlar parlamentdə xalqdakı aqressiyanı psixoloji olaraq azaltmaq üçün elə hakimiyyətin razılığı və tövsiyəsi ilə danışıblar. Sanki xalq1a canı yanan varmış görüntüsü yaratmaq üçün...

Bir düşüncə də odur ki, onlar da həqiqətən xalqın ağır duruma düşməsinə görə haqq səslərini ucaldıblar.

Amma hər bir halda Azərbaycan reallığında deputatların belə sərt çıxışlar etmələri indiyə qədər nadir hallarda olub. Həmin şəxslər ya mandatlarından məhrum olublar, ya da növbəti seçkilərdə seçilməyiblər...

**“Turan” informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, tənqidi çıxışlar edən deputatlar xalqı yox, özlərini düşünürlər:** “Onlar kreslolarını düşünürlər. Onlara nə deyilir, onu da edirlər. Qiymət artımı ilə bağlı yazılarım olub və orada fikirlərimi tam əsaslandırmışam ki, bahalaşma Azərbaycanda nə iqtisadi, nə də mənəvi nöqteyi-nəzərindən ola bilməz. Bu, sadəcə, millətin cibinə girməkdir. Büdcəni bu yollarla doldurmaq istəyidir. Bu da çox anormal bir metoddur. Bahalaşmaya görə əhali arasında narazılıq var və getdikcə artmaqdadır. Deputatların dedikləri ilə müəyyən fikirlər formalaşdırmağa çalışırlar ki, guya hökumət nəyisə fikirləşir. Bir taksiyə minmişəm və şofer deyir ki, dünən qərar verdilər, bahalaşmanı dayandırırlar. Deyirəm ki, belə şey olmayıb, deyir dünən televizorda çıxışlar olanda gördüm. Bu metodla xalqda çaşqınlıq yaranır. Bilirlər ki, vaxt keçdikcə, camaat yavaş-yavaş bahalaşmaya öyrənəcək. Belə söhbətlər, ortaya atmaqla millətdə ümid yaratmaq istəyirlər ki, nəsə dəyişəcək. Camaat qəbul etsə, demək, hər şey olub keçəcək. Əks halda, vətəndaşlar etirazlarını davam etdirsələr, o zaman deyəcəklər ki, bəs filankəs burada günahkardır, bir növ günahkar kimi kimisə qurban verəcəklər. Hər şey cəmiyyətin reaksiyasından asılıdır. Deputatların çıxışlarına birbaşa dediklərimi həyata keçirməyə hesablanıb. Burada başqa şey yoxdur”.

**“Turan” rəhbəri hökumətdə dəyişikliklərin olacağının qaçılmaz olduğunu da qeyd etdi:** “Dəyişikliklər mütləq olacaq. Səhərisi gün dəyişikliklər olanda cəmiyyət də ümid edəcək ki, demək, hər şey yaxşılığa doğru gedir. Belə vəziyyətin yaranmasında birbaşa parlament məsuliyyət daşıyır. Bu hökuməti onlar təsdiq edirlər. Əgər hökumətə onlar nəzarət edə bilmirlərsə, istefa verib getməlidirlər. Əgər xalqı düşünsəydilər, xalq bu günə düşməzdi, böhran ölkəni bürüməzdi. Niyə bu günə qədər parlamentə Tarif Şurası, maliyyə və iqtisad nazirləri dəvət olunmur? Deputatlar artıq Prezident Administrasiyasından daha çox asılı olurlar. Çünki konstitusiyaya dəyişikliklərlə prezidentin parlamenti buraxmaq səlahiyyətinin olduğunu yaxşı dərk edirlər. Ona görə çalışacaqlar ki, hər şeyi etsinlər, onlardan narazı qalınmasın. Bu böhran Azərbaycanda kasıb və varlıya fərq qoymur, hamıya təsir edir, hamı itirir. Parlamentdə bir qisim bahalaşmanı müdafiə edir, digər qisim tənqid atəşinə tutur. Burada da məqsəd ictimaiyyəti çaşdırmaqdır. Onlar xalq tərəfindən seçilsəydilər, xalq qarşısında hesabatlı olsaydılar, bu böhran baş verməzdi. Özümüzü aldatmayaq. Onlar bizimlə oyun oynayırlar”.

❑ **Cavanşir ABBASLI**

# Korrupsioner məmurun dövlətə vurduğu ziyanı dostları ödəyib...

## “Aztelekom”un sabiq rəhbəri mənimsəmələrin birbaşa Vidadi Zeynalovun rəhbərliyi ilə həyata keçirildiyini deyib

**Dekabrın 9-da Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

**Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində təqsirləndirilən şəxslərdən “Aztelekom” MMC-nin sabiq rəhbəri Məhəmməd Məmmədov ifadə verib.**




O qeyd edib ki, həbs edilənlərin hər biri peşəkar və təcrübəli rabitəçilərdir. M.Məmmədov özünün və digərlərinin həbs edilməsini həyatın keşməkeşi kimi qiymətləndirib: “Bura düşməyimiz həyatın keşməkeşidir. İşlərdə nəsə səhvlər olub ki, biz indi burdayıq”.

M.Məmmədov istintaqa verdiyi ifadəsini təsdiq etdiyini söyləyib və sualları cavablandıra biləcəyini deyib. Prokuror Fərid Nağıyev ifadəsini təsdiq etdiyi üçün M.Məmmədova sualının olmadığını bildirib.

Nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalovun vəkilləri M.Məmmədov ifadəsinin elan olunmasını istəyiblər. Məhəmməd Məmmədovun ifadəsi elan olunub.

**O, ifadəsində bildirir ki, 2004-cü ildən “Aztelekom” İstehsalat Birliyinin baş direktoru vəzifəsində işləyib:** “2015-ci ildə ”Aztelekom" İstehsalat Birliyinin bazasında “Aztelekom” MMC təsis edildi. Cəmiyyət nazirliyin struktur qurumu olduğundan MMC-nin fəaliyyətinə nazirliyin rəhbərliyi, yəni nazir, nazir müavinləri İltimas Məmmədov və Elmir Vəlizadə, aparat rəhbəri Vidadi Zeynalov nəzarət edirdi. İltimas Məmmədov texniki məsələlərə, Elmir Vəlizadə informasiya texnologiyalarına, Vidadi Zeynalov isə maliyyə məsələlərinə nəzarət edirdi.

MMC-nin baş mühasibi Oktay Rüstəmov nazirliyin nomenklaturası olduğuna görə o, birbaşa Vidadi Zeynalovla hesablaşırdı. Baş mühasibin işə qəbulu, işdən azad olunması, məzuniyyət və ezamiyyə əmrləri birbaşa nazirlik tərəfindən verilirdi. Vidadi Zeynalov Oktay Rüstəmovun özünə göstəriş vermişdi ki, aylıq olaraq pul toplayıb ona təqdim etsin. Oktay Rüstəmov tərəfindən Vidadi Zeynalova 2009-2013-cü illərdə hər ay stabil olaraq 500 min manat, 2014-2015-ci illərdə isə aylıq 200 min manat pul verilib. Qeyd edilən vəsaitlər Oktay Rüstəmov tərəfindən nağd olaraq toplanıb, həmin proseslərə müdaxilə etmək, qarşısını almaq səlahiyyətlərim yox idi. Sadəcə olaraq, MMC-nin baş direktoru kimi gedən proseslərdən məlumatım olurdu.

Beynəlxalq danışıq trafikinə görə xidmət göstərdiyi üçün “Azintelekom” MMC-dən “Aztelekom” MMC-nin hesabına aylıq 1-2 milyon manat arası vəsait köçürülüb. “Azintelekom” MMC-nin hesabından köçürülən vəsait birbaşa və ya dolayı yolla Vidadi Zeynalova ödənilib. Vidadi Zeynalov baş mühasib Oktay Rüstəmova göstəriş verdiyi üçün “Azintelekom” MMC-dən daxil olan vəsait onun dediyi müəssisələrə köçürülüb.

Podratçı təşkilatların hesabına köçürülmüş vəsaitlərin müəyyən hissəsi, vəsaitlərin əsas hissəsi isə “Optik Rabitə Montaj”, “Optik Rabitə Tikinti və Quraşdırma”, “Rabitəçi İstirahət Bazası”, “Qafqaz-S İnşaat” və “Komplas” MMC-lərin hesablarına köçürülməklə, müxtəlif müqavilələr əsasında nağdlaşdırılaraq Oktay Rüstəmovun vasitəsilə Vidadi Zeynalova verilib. “Aztelekom” MMC kimi nazirliyin digər struktur qurumlarının rəhbərləri tərəfindən aparat rəhbəri Vidadi Zeynalova aylıq vəsait vermələrini eşidirdim, həmin ödənişlərin hansı məbləği təşkil etməsini bilmirdim".

M.Məmmədovun ifadəsindən məlum olub ki, o özünü heç bir mənimsəmə əməliyyatında təqsirli bilməyərək bütün pulköçürmə əməliyyatlarının baş mühasiblə Vidadi Zeynalov arasında aparıldığını deyib. M.Məmmədov istintaqa ifadəsinin bəzi məqamları ilə razı olmadığını və mənimsəmə, şişirdilmə əməliyyatlarının kimlər tərəfindən aparılması ilə bağlı konkret ad çəkmədiyini deyib.

**V.Zeynalovun vəkillərinin suallarına cavab olaraq M.Məmmədov mənimsənildiyi qeyd edilən məbləğin, nazirliyin rəhbərliyinə aylıq pul ödənilməsi tapşırığının kimlər tərəfindən verilməsini belə izah edib:** "Mən konkret ad çəkməmişəm. İndi də çəkməyəcəm. Bu, nazirlikdə sistemli şəkildə qurulmuşdu. Rəhbərlik, hər kəs məlumatlı idi. İndi burada Vidadi Zeynalov əyləşib. Başqası olsa idi, onu da burada əyləşdirəcəkdilər. Kimsə burada olmalı idi. Onlar da bizik. Ayrılan pullar, nazirliyə köçürülən pullarla bağlı Oqtay deyirdi ki, bu pul oraya köçürülməlidir. Bu qərar da müzakirə edilmirdi. Amma niyə və nə məqsədlə köçürüldüyünü bilmirəm".

**Vəkillər M.Məmmədovdan özünü təqsirli bilmədiyi, mənimsəmə əməllərinə əl qoymadığı halda istintaq zamanı müəyyən edilmiş zərəri niyə ödədiyini soruşublar.**

**N.Məmmədovun cavabı belə olub:** “Həmin məbləği dostlarım ödəyiblər. Sağ olsunlar. Səbəbini bilmirəm”.

**Məhkəmədə növbəti ifadə verən şəxs “Aztelekom” MMC-nin baş mühasibi Oktay Rüstəmov olub.**

**O, aylıq 1600 manata qədər maaş aldığını, heç bir mənimsəmə əməliyyatlarında iştirak etmədiyini deyib:** “Qurbanlıq qoyun kimi burdayam. Mənim bu işdə nə qədər günahım olduğunu bilmirəm. İstintaqa çağırılanda xəstəxanada idim. Prokurorluqda da ifadə verəndə qeyd etmişəm ki, qeyd edilən mənimsəmə əməllərində, təmir-tikinti işlərinə ayrılan vəsaitlərin şişirdilməsində heç bir iştirakım olmayıb. Bəzilərinin ifadələrində qeyd etdiyi kimi, mən heç bir halda Vidadi Zeynalova pul aparıb verməmişəm. Tenderlərin keçirilməsi, hansı şirkətlərə ayrılmasına hər hansı bir müdaxiləm olmayıb. Pul vəsaitlərinin köçürülməsinə, hərəkətinə mənim çalışdığın MMC-nin rəhbərliyi, müavinləri daim nəzarət edib. Mən baş mühasib olmuşam və öhdəliyimdə heç bir dövlət əmlakı olmayıb ki, onu mənimsəyim. Aktların hazırlanması, ”Aztelekom"a tabe olan idarələrdə pul köçürmələrində heç bir imzam və iştirakım olmayıb. Mənə qarşı bir neçə maddə ilə ittiham irəli sürülüb. İlk həbs edilən də mən olmuşam. Mənim adamım, müdafiə edənim yoxdur. Həbs edilməyimiz göstərişi gəlib və birinci də mən həbs edilmişəm".

Sərbəst ifadədən sonra M.Məmmədov prokurorun suallarını cavablandırıb.

**İttihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə suçlanır.**

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016

# “Deməzdim ki, həyatımın Təhminəsi olub...”

## Elxan Cəfərov: “Hiss etdim ki, mənim uğurum bu peşədə deyil”

**Mədəniyyət sahəsinin tanınmışları ilə vaxtaşırı müsahibə edirik. Budəfəki həmsöhbətimiz tanınmış rejissor, əməkdar incəsənət xadimi Elxan Cəfərovdur. Rejissorla “Azərbaycanfilm” kinostudiyasında görüşüb, kinomuzun bugünkü durumu, çəkdiyi filmlərdən söz açdıq.**



***- Elxan bəy, geridə qoyduğumuz 2016-cı il il sizə hansı uğurlar qazandırdı, aldığınız fəxri addan başqa?***

- Uğurlarım dedikdə, əslinə qalsa hər hansı bir rejissorun uğuru çəkdiyi işlərlə əlaqəlidir. Mən bu il ərzində böyük iş görməmişəm. 2015-ci ilin ortasında biz “Yarımçıq xatirələr” filmini təhvil verdik. Bu müddət ərzində bir qədər kommersiya tipli reklam çəkilişlərini etdik, səsimlə bağlı bəzi proyektlərdə iştirak etdim. Yəni qlobal bir hadisə baş verməyib.

***- “Yarımçıq xatirələr”dən söz düşmüşkən, bu film haqqında ancaq mətbuatda məlumatlar izlədik, televiziyalarda görə bilmədik.***

- Birincisi, mən yaydan elə bilirdim ki, film sentyabr, oktyabr aylarında televiziya ekranlarına çıxacaq. Lakin filmin yiyəsi də mən deyiləm, müəllifi hüquqları da mənə məxsus deyil, onun nə vaxt yayımlanacağı ilə bağlı informasiya daha çox kinostudiyanın direktoru Müşfiq Hətəmova və nazirliyin bu işlə bağlı kino idarəsi işçilərinə verilə bilər. Çünki müəyyən nüanslar, qanunlar var ki, o qanunlar çərçivəsində müəyyən müddət keçməlidir, sonra ekrana çıxmalıdır. Bəzi siyasi məqamlar da var. Yəni hər şey nəzərə alınır. Ola bilsin ki, yaxın günlərdə ekranlara çıxar. Mənə elə gəlir ki, təkcə köhnə kinolar deyil, bugünkü kinoların da yayımı üçün televiziyaların hər biri vaxt ayırmalıdır, müəyyən öhdəçilik götürməlidirlər.

***- Maraqlıdır ki, son çəkilən filmlərin əksəriyyəti beynəlxalq festivallara hesablanıb, Azərbaycan tamaşaçısına təqdim olunmur. Bu barədə sual verəndə bildirirlər ki, həmin film yalnız festival üçün nəzərdə tutulub. Azərbaycan tamaşaçısının istəyi bu gün niyə ikinci planda qalır?***

- Əslinə qalsa, doğru sistemin içində bir neçə istiqamətdə filmlər olur: Festivallar, daxili bazar, milli ideologiyanı nümayiş etdirən və dünyəvi tolerant fikirlərlə həmrəy olmaq istiqamətində çəkilən filmlər və sairə. Bu gün deyə bilmərik ki, niyə bu və ya digər film məhz festival üçün nəzərdə tutulub, bu, pisdir. Çoxşaxəlilik nöqteyi-nəzərindən əgər vaxtilə dövlət strukturlu 10 film çəkilirdisə, onun 4-7-si kinoteatr, təxminən 3-4-ü televiziya üçün nəzərdə tutulan bədii filmlər idi. Bu gün isə ümumilikdə 3-4 film çəkilir. Həm maliyyə çətinlikləri, həm də dünya kino bazarında kinonun dəyərinin qalxması, bizdə büdcələrin azalması və sair səbəblərdən dövlət strukturu üçün böyük kino çəkmək çətin olur. Mən çox ümidliyəm, Azərbaycan dövlət kinosunun inkişafı yenə də gəlib həmin mərhələyə çatacaq ki, biz ildə məhz sırf öz tamaşaçımız, həm də dünya tamaşaçısı üçün nəzərdə tutulan 7-10 film çəkəcəyik. Ümumiyyətlə, sənətin ilk vəzifəsi daxili bazarda öz cəmiyyətini tərbiyə etmək, onu tarazlamaqdır. İkinci növbədə isə bəli, milli düşüncə tərzimizi dünyaya nümayiş etdirməkdir və bu nə qədər maraqlıdırsa, onu dünya həll edir. Amma bir daha qeyd edirəm, incəsənətin vəzifəsi daxili bazardır.

***- Uşaqlıqdan məşhur filmlərə çəkilən Elxan Cəfərov niyə sonralar öz ampluasını dəyişib aktyorluqdan rejissorluğu seçdi? Aktyorluq sənətində sizi qane etməyən nüanslar var idi, yoxsa?***

- Yox, sadəcə, hər hansı peşəni seçirsənsə, o peşə üçün doğulmaq lazımdır. İnsan öz daxilində hiss edir ki, onun uğuru bu peşədə deyil. Mən də onu hiss etdim ki, mənim uğurum bu peşədə deyil. Lakin bunu gənclik vaxtlarında düşünürdüm, indi məni uğur maraqlandırmır, görəcəyim işin məzmunu maraqlandırır. Doğrudur, rejissorlar var ki, aktyor kimi də iştirak edir. Lakin mən gördüm ki, ekranda çox sənədiyəm. Yeni rejissorların əksəriyyətində belə olur, həddindən artıq sənədi baxışları, simaları olur.

***- Məşhur “Şir evdən getdi” filmində qəhrəmanlardan biri olmusuz. Sizcə, niyə bu gün bu tipdə uşaqları təəccübləndirən, maraqlandıran filmlər çəkilmir? Bir rejissor kimi belə bir film çəkməyi düşünmüsüz?***

- Bəli. Uşaq filmləri kinonun ən çətin növüdür və böyük maliyyə tələb edən işlərdir. Demirəm ki, bizim büdcəmiz 100-200 milyon olmalıdır. Biz kiçik büdcə ilə də onu əldə edə bilərik. Amma kiçik dediyimiz 100 milyondan az olmalıdır. Nağıl çox bahalı bir işdir. Uşaqlar isə nağılı çox sevirlər. Mən çox böyük məmnuniyyətlə qeyd etmək istərdim ötən il təqdim olunan “Dərs” filmini. Bu, çox gözəl bir cəhd, hadisə idi. O filmdə dramaturji baxımdan bir sadəlik var. Hadisə uşaqların arasında baş verdiyindən mən buna daxilən daha çox inandım.

***- Bir az öncə qeyd etdiniz ki, bu cəhd idi. Bəziləri də bunun yalnız cəhd olduğunu, filmin o qədər də uğurlu alınmadığı barədə iradlarını bildirdilər.***

- Ən çətin işdir uşaqlarla çalışmaq. Mən bir il bundan əvvəl Hari Poter filminin çəkilişlərinə baxdım. Deməli, səhər saat 7-nin yarısı hər bir uşağı evdən individual avtomobil, assistentlər götürür, 7-də artıq kinostudiyaya daxil olurlar, 8-in yarısı səhər yeməyi olur, 8-10 arası geyimlərini geyinirlər və hər bir aktyor, uşaq üzərində çalışırlar. Assistent uşağın həm qəyyumu, valideyni olur, yəni kompleks şəkildə işləri öz üzərinə götürür. Artıq saat 10 tamamda uşaqlar hazır çəkiliş meydançasında olurlar. Məhz uşaqlara belə sistemdə işləmək lazımdır. Böyüklərlə işləyəndə demək olur ki, “5 dəqiqə gözlə başqasını qrimləyək, sonra sənə yaxınlaşarıq”. Amma bunu uşaqlara etmək olmur, bir də ayılırsan ki, uşağın biri yoxdur. Bəs nə oldu? Sən demə, başqa yerə gedib çıxıb. Onu gətirmək vaxt və sairə tələb edir. Yəni çox çətindir, necə ki, məktəb sistemi var, uşaq filmlərinin də çəkilişi üçün özünün bir sistemi olmalıdır. Özüm də çox böyük məmnuniyyətlə nağıl çəkmək istərdim.

***- Aktyor kimi çəkildiyiniz sonuncu film hansı olub?***

- (Fikrə gedir)... “Beş mərtəbəli evin altıncı mərtəbəsi”.

***- Bu film bir qədər sönük alındı deyə bilərikmi?***

- Ümumiyyətlə, onun çəkildiyi dövr qəliz dövr idi. O vaxtın texnikası və s. çox çətin idi.

***- “Təhminə” filmindən sonra onun bənzərinin çəkilməsinə nə ehtiyac var idi?***

- Bu, indiki kommersiya filmlərinin ilk cücərtiləri idi. O filmin sponsorları, sifarişçiləri var idi, məhz alternativ bir film idi. Həmin vaxt “Təhminə və Zaur” mövzusu çox geniş yayılmışdı. Yeni kommersiya faktoru nöqteyi-nəzərindən alternativ, dəfələrlə az büdcə və imkanlar ilə film yaratmaq olurmu deyə çəkilmişdi. Həmin vaxt araşdırmalar dövrü idi. Mən o filmi ilklərdən olan bir film kimi dəyərləndirirəm.

***- Maraqlıdır, bəs həyatınızın Təhminəsi olubmu?***

- Ooo... Təhminələr, bilirsiz... Fikir vermişəm, əksər aktrisalar Təhminə rolunu oynamaq istəyirlər. Bu, nə ilə bağlıdır? Bir maraqlı nəzəriyyəyə görə insanlar birinci genetik yaddaşa malikdirlər və bu qanla, genetik yaddaşda insanda mütləq azadlıq arzusu var. Mütləq azadlıq arzusu hər bir insanın qəlbində var və rol ifa olunduğu anda şərtilik aktrisaya tam daxili qadın azadlığını, düşüncə tərzini büruzə verməyə rahat imkan verir. Həyatda Təhminə olmaq həddindən atıq çətindir, yəni o cür düşüncəli Təhminə olmaq, sevgili olmaq və sadəcə, bir düşüncəsiz, bəsit insan deyil, ziyalı əqidəsi və qəlbi olan insan olmaq. Həmin əsərdə sevginin gözəl bir azadlıq məqamı var. Onu müxtəlif dövrlərdə müxtəlif insanlar yaşlarının müəyyən həddində yaşayırlar. Mənim də eyni zamanda müəyyən bir vaxtım olub. Amma deməzdim ki, lap belə, həyatımın Təhminəsi olub. Amma yaradıcı insanıq, bizim üçün bütün gördüyümüz xanımlar bir nəzər nöqtəsidir, düşüncə tərzidir, təxəyyül üçün bazadır.

***- Bir az öncə bu sualı vermək istəyirdim, lakin araya digər söhbətlər qarışdı. “Şir evdən getdi” filmində hansı maraqlı hadisələr yaşamısız? Ümumiyyətlə necə oldu ki, o filmə düşdünüz?***

- Maraqlı xatirələr barədə çox danışmışam. Lakin mənim üçün çox maraqlı bir məqam var. Mənim 9 yaşım vardı, nağıl dünyasına çox inandığım bir dövrüm idi. Doğrudur, artıq bilirdim ki, nağıllar real deyil, daxili bir küskünlük var idi ki, heyf, nağıllar real deyil. Sonra fikirləşirdim ki, yox, keçmişdə belə bir şey olub, sonra o dövr keçib. İlk dəfə “Gənclik”də uşaqlarçün dəmir yolu var idi. O ərazidə böyük bir park salınmışdı, orada heyvanlar üçün böyük bir dekorasiya qurmuşdular. Yadımdadır heyvan dekorasiyasına atdığım ilk addım, bax o mənim üçün çox maraqlı idi. Mən faktiki bir məkana girdim, nağılın çox maraqlı bir formatını gördüm. Yenə də başa düşərək ki, bu, reallıq deyil, reallığın əksidir, amma uşaqlıq düşüncəm üçün çox maraqlı idi. Orada heyvanlarla guya təmas qururdum, onda sanki nağıl dünyasının oyunlarını qəbul etdim, şirlə şir kimi, zürafə ilə zürafə kimi danışmağa başladım. Çox maraqlı bir hiss yarandı içimdə. Bax o məqam mənim üçün maraqlı idi.

***- Xanımınız olan aktrisa Gülzar Qurbanova sizin son 3 filminizdə rol alıb. Maraqlıdır, başqa rejissorların da diqqətini cəlb edə bilirmi? Yoxsa digər peşəkar aktrisalarımız kimi o da bu məsələdə narazıdır?***

- Yox, yox. Ümumiyyətlə, mən Gülzar xanıma təvazökarlıqdan uzaq olsa da, təkcə həyat yoldaşım kimi deyil, ona peşəkar aktrisa kimi baxıram. Gülzar xanım doğrudan da böyük, daxili nəhəng bir aktrisadır. Hər zaman filmlərim üçün aktyor seçəndə onunla məsləhətləşirəm. Yadımdadır, “Dolu” filminə aktrisa axtarırdım. Dedim ki, “Gülzar, mənə 18 yaşında oğlu şəhid olan ananı canlandıran aktrisa lazımdır”. Dedi ki, “düşünərəm”. Bir-iki gündən sonra dedi ki, “Elxan, qızımızın 18 yaşı var, bəlkə mən oynayım o obrazı?” Əvvəlcə dedim ki, yox, nə danışırsan, sən hələ gəncsən, görkəmcə 18 yaşlı övladın olmağın hiss olunmur. Sonra düşündüm ki, istehsalat prosesinin texniki və psixoloji problemləri, yeni bir aktrisanı tapmaq, o prosesləri aparmaq və sairə var, buna görə yaxınlığımda olan Gülzar xanımı bu obraza çəkdim. Daha sonra isə “Yarımçıq xatirələr” filminə dəvət etdim... Bəli, Gülzar xanım mənim filmlərimdən başqa digər filmlərə də çəkilir. Hətta mən filmi bitirib digər filmə başlayana qədər Gülzar xanım artıq 3 filmə çəkilir, bəzən gənclərin də filmlərinə çəkilib kömək edir.

***- Gülzar xanım fəxri adı da sizdən bir neçə il əvvəl alıb. Halbuki siz uşaqlıqdan filmlərə, özü də məşhur filmlərə çəkilmisiz. Bu, sizdə qısqanclıq yaratmırdı?***

- Yox, qətiyyən. Bir də axı o mənim həyat yoldaşımdır. Biz çox sevindik, bu, bizim ailəmizin uğuru idi.

***- Otağa daxil olanda ilk məni cəlb edən onun portreti oldu. (Şəkil məşhur “Ölsəm bağışla” filmindən çəkilib - X.G.) Hiss olunur ki, hələ də Gülzar xanımı həmin gənclik məhəbbəti ilə sevirsiz.***

- Bu plakatı mənə dostum Rəşad fonddan verib. Onu çərçivəyə salıb evə apardım. Lakin Gülzar xanımın nəsə çox da xoşuna gəlmədi gənclik şəkli. Gətirdim otağıma taxdım... Gülzar xanım mənim üçün bir simvoldur. Elxan haqqında danışanda mütləq Gülzar haqqında düşünülür, onun haqqında danışılanda mənim barəmdə düşünülür. Yəni bu, artıq taledir, mən bundan çəkinmirəm, sevinirəm.

***- “Dolu” filminə gələk. Film ekranlara gəldi, xeyli rəğbət qazandı, lakin “romandan zəif alınıb”deyə iradlar da səsləndi.***

- Ümumiyyətlə, hər hansı bir iş olanda onun həm əleyhdarları, həm də tərəfdarları Əleyhinə olan fikirlərlə də razıyam, amma elələri də var ki, çox yanlışdır, qərəzlidir. İkincisi də mən çox sevinirəm ki, bu film müzakirə predmetinə çevrilib, çox maraqlıdır. Çünki “Dolu” filmindən öncə bizdə daxilən bir sönüklük var idi, alınmaz deyə. Bu film kütləvi surətdə yayımlanan ilk yeni Azərbaycan filmlərindən biridir. Və oradakı vacib məqamlardan biri də filmin baxımlı olması faktoru, kadrın içində bir neçə kameranın işləməsi, kaskadyor qrupunun peşəkarlığı, biz azərbaycanlı kimi mənim böyük arzumun yerinə yetməsi idi...

❑ **Xalidə GƏRAY**

# Yol polisi avtobuslarla səyahət təşkil edən hüquqi və fiziki şəxslərə müraciət etdi



**Baş Dövlət Yol Polisi İdarəsi qış mövsümü ilə əlaqədar ayrı-ayrı regionlara avtobuslarla səyahət təşkil edən hüquqi və fiziki şəxslərə mürciət edib. Baş Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, qış mövsümü ilə əlaqədar istirahət və tətil günlərində məktəblilərin, təhsil müəssisələrindəki azyaşlı uşaqların, eləcə də digər müəssisə və təşkilatlarda çalışan əməkdaşların övladları üçün avtobuslarla ölkənin ayrı-ayrı regionlarına səyahətlər təşkil olunur.**

Belə səfərlər zamanı adətən müxtəlif turizm şirkətlərinin, bəzi hallarda isə qeyri-müntəzəm şəkildə sərnişindaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə məxsus olan avtobus və mikroavtobuslardan istifadə edilir. Təəssüf ki, qeyri-müntəzəm şəkildə təşkil edilmiş daşımalar zamanı bəzən nəqliyyat vasitələrinin texniki vəziyyətinə, sürücülərin reysqabağı tibbi müayinəsinə, onların iş rejiminə riayət edilməsinə nəzarət olunmur, nəqliyyat vasitəsinin texniki xarakteristikasının keçdiyi ərazinin relyefinə uyğun olub-olmamasına, gedəcəyi ərazidəki meteoroloji şəraitə diqqət yetirilmir ki, bu da yollarda, xüsusilə dağlıq ərazilərdə yol-nəqliyyat hadisələrinin baş verməehtimalını artırır.

Baş verə biləcək ağır qəzaların qarşısının alınması və təhlükəsizliyin təmin olunması məqsədilə Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi sərnişindaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin nəzərinə çatdırır ki, qış mövsümü ilə əlaqədar məktəb şagirdlərinin avtobuslarla ölkənin ayrı-ayrı regionlarına səyahətlərini yalnız sərnişindaşıma sahəsindəki mövcud qanunvericiliyə uyğun olaraq, aşağıda qeyd olunan tələblərə ciddi riayət olunmaqla təşkil etməlidirlər;

- Uşaq qruplarının avtobuslarla daşınması yalnız "D" kateqoriyası üzrə avtomobil nəqliyyatı vasitəsinin idarə olunmasında üç il və daha çox fasiləsiz iş stajına malik olan sürücülər tərəfindən yerinə yetirilməlidir;

*- Uşaq qruplarının 400 km-dən artıq məsafəyə daşınması üçün uşaqları aparan hər avtobusa iki sürücü təhkim olunmalıdır;*

*- Növbəarası istirahəti 12 saatdan az olan və ya reysqabağı tibbi müayinədən keçməyən sürücülər tərəfindən yaxud texniki vəziyyətinin reysqabağı yoxlanılması aparılmayan avtonəqliyyat vasitələri ilə uşaqların daşınması üçün reysə çıxmasına yol verilməməlidir;*

*- Avtobuslarla uşaq qruplarının daşınması yerinə yetirildikdə, daşınmanın sifarişçisi tərəfindən bir böyük müşayiətçi, aparılan uşaqların sayı iyirmidən çox olduqda isə iki böyük müşayiətçi təyin edilməlidir. Müşayiətçilər uşaq qruplarının təhlükəsiz daşınması məqsədi ilə müvafiq tədbirlərin görülməsini təmin etməlidirlər. İki müşayiətçilərdən biri baş müşayiətçi təyin edilməli, həmin müşayiətçi əsas avtobusda olmalı və daşınma zamanı daşıma qaydalarından irəli gələn tələblərin yerinə yetirilməsinə nəzarət etməlidir;*

*- Azərbaycan Respublikasının ərazisində uşaq qruplarının daşınması zamanı növündən asılı olmayaraq, avtobusların hərəkət sürəti saatda 70 kilometrdən artıq olmamalıdır. Yol hərəkəti qaydalarının tələblərinə uyğun olaraq uşaqların daşınmasını yerinə yetirən avtobusların yaxın məsafə üçün işıqları günün vaxtından asılı olmayaraq yandırılmalı və onlar "Uşaqların daşınması" tanınma nişanı ilə təchiz edilməlidir.*

*- Uşaq qruplarının saat 23.00-dan 05.00-dək olan vaxt ərzində, habelə yolun görünməsi məhdud olduğu şəraitdə (duman, yağış, qar və digər hallarda) daşınmasına yol verilmir. Müstəsna hallarda saat 23.00-dan 05.00-a qədər olan vaxt ərzində uşaqların dəmir yolu vağzallarına, hava və dəniz limanlarına və onların geriyə qaytarılmasına, habelə yolda ləngimə baş verdikdə, yaxındakı istirahət məntəqəsinədək (gecələmə yerinədək) daşınmasına yol verilir.*

Belə daşımaların təhlükəsizliyinin təmin olunması məqsədilə xahiş olunur ki, səyahət təşkil edən müəssisə və təşkilat rəhbərləri uşaqları daşıyacaq nəqliyyat vasitələrinin gedəcəkləri istiqamətdə müşayiət olunmaları üçün səfərdən 5 gün əvvəl ərazi üzrə DYP bölümlərinə müraciət etsinlər.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**










## Güclü külək Bakıda ticarət mərkəzinin damını uçurdu

**Güclü külək Bakıda ticarət mərkəzinin damını uçurub. APA-nın məlumatına görə, hadisə Babək prospektində yerləşən "Tutto Bello" ticarət mərkəzində qeydə alınıb. Güclü külək damı uçuraraq Babək prospektinə aşırıb. Yolda nəqliyyatın hərəkəti məhdudlaşıb, tıxac yaranıb.**

Xəsarət alan yoxdur. İki avtomobilə ziyan dəyib.

"Yeni Müsavat"ın hadisə yerində olan əməkdaşı xəbər verib ki, hadisə Babək prospektinin birtərəfli bağlanmasına səbəb olub. Sürücülər bardyoru aşaraq əks istiqamətdə getməyə məcbur qalıblar. Aşan dam örtüyü yaxınlıqda olan 2 minik avtomobilinə ziyan vurub. Ticarət mərkəzinin işçiləri yola tökülən dam örtüyünü sökərək kənara daşıyırlar. Güclü külək onların da işinə mane olub.

## Bakı sakini dəm qazından boğuldu

**Bakıda dəm qazı daha bir nəfərin həyatına son qoyub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, dekabrın 8-də Binəqədi rayonunun "28 May" qəsəbəsində yaşayan Əflatun Babayev evində dəm qazından zəhərlənərək ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## Sumqayıtda küçədən "Kalaşnikov" avtomatı tapıldı

**Sumqayıtda küçədən silah tapılıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Sumqayıt Şəhər Polis İdarəsi 4-cü polis bölməsinin əməkdaşları tərəfindən şəhər ərazisindən 1 ədəd nömrəsi oxunmayan, paslanmış "AKM" markalı silah tapılıb.**

YENİ MÜSAVAT
N 275 (6596) 10 dekabr 2016

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat katibi Yolçu Xanvəli mətbuata açıqlamasında Azərbaycan və Moldova arasında at ətinin ixracı barədə müqavilə bağlandığını bildirib. Mətbuat katibinin sözlərindən bəlli olub ki, bir sıra regionlarda, o cümlədən Gəncə regionunda at kəsimi məntəqəsinin tikilməsi planlaşdırılır.**

# Bazarları at-eşşək əti bürüyə bilər

## Rəsmilər at ətinin Moldovaya göndəriləcəyini desələr də, reallıq bir başqa mənzərəni ortaya qoyur

Y.Xanvəli məntəqənin soyuducularla təmin olunacağını və həmin məntəqələrdə baytarlıq-sanitariya ekspertiza laboratoriyaları fəaliyyət göstərəcəyini bildirib.

“Bundan sonra heyvanlar qəbul olunacaq. Müayinə edildikdən sonra kəsiminə icazə veriləcək. At əti yalnız Moldovaya ixrac olunacaq. Yəni ölkə daxilində bu ətin satılması mümkün deyil. Bütün proseslər Dövlət Baytarlıq Nəzarəti Xidmətinin əməkdaşlarının nəzarəti altında həyata keçiriləcək” - deyə Y.Xənvəli fikirini konkretləşdirib.

Halbuki Azərbaycanda at, eşşək ətinin satışına qadağa yoxdur və olmayıb. Bu baxımdan, Y.Xanvəlinin niyə ətin məhz Moldovaya satılacağını israrla söyləməsi sualı yaranır.

Axı ölkədə piştaxtalara at, eşşək ətinin çıxması adi haldır. Sadəcə, belə heyvanların əti öz adı ilə deyil, mal əti adı ilə əhaliyə sırınır.

Bu haqda “Yeni Müsavat”ın 13 aprel 2016-cı il tarixli sayında “Azərbaycanda ”Leşyığanlar şəbəkəsi" milləti zəhərləyir - şok faktlar" sərlövhəli yazıda detallı məlumat vermişdik. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov “Yeni Müsavat”ın müxbirinə demişdi ki, 15 ilə yaxındır ki, murdar at, qeyri-ənənəvi ətləri Bakıya gətirən şəbəkəni ifşa etmək istəyirlər. Amma buna nail ola bilmirlər

**Həmin yazıdan sitat:** “Dövlət orqanlarına Bakıda murdar ətlərin emal olunduğu, saxlandığı, satıldığı ünvan haqda məlumat vermişik. Nəsimi rayonu ərazisində 4-cü mikrorayonda yerləşən həmin sallaqxana illərdir fəaliyyətdədir. Bu yer haqda məlumat veririk, lakin dövlət orqanlarının ora ilə bağlı birgə fəaliyyətinə nail ola bilmirik. Polisə məlumat veririk, deyir, biz təhlükəsizliyi qoruyarıq, amma oradan ət götürüb ekspertizaya təqdim edə bilmərik. Çox təəssüflər olsun ki, dövlət orqanları bu haqda heç bir tədbir görmək istəmir”.

Belə bir halda Yolçu Xanvəlinin Gəncədə kəsiləcək at-eşşək ətinin Moldovada satılacağına israrla diqqət çəkməsi təsadüfdürmü?

**Digər tərəfdən, Eyyub Hüseynov qəzetimizə elə həmin açıqlamasında çox maraqlı bir faktı da açıqlamışdı.**

**Sitat:** “Sovet dövründə qəbul olunmuş qərara görə, Azərbaycanda at və eşşək əti yeməli ət kimi göstərilib. Həmin qərarın ləğv olunması haqda müvafiq əmr yoxdur. Əminəm ki, həmin qərarı o dövrdə ermənilər qəbul etdirib. 15 sovet respublikasından yalnız Azərbaycanda belə ətlərin yeyilməsinə rəsmi qərarla icazə verilib. Bu gün İqtisadiyyat Nazirliyinin səlahiyyəti var ki, həmin qərarı ləğv etsin”.



Bu ilin aprelində bu fakt yenidən gündəmə gəlsə də, İqtisadiyyat Nazirliyi sovetlər dönəmində qəbul olunmuş qərarı ləğv etməyə heç bir cəhd göstərmədi. Niyə? Nə səbəbə?

Bu gün at-eşşək ətinin satışından əldə olunan pulların qədəri, dövriyyəsi haqda konkret məlumat yoxdur. Amma gündəlik xəbər saytlarını izləyənlər Azərbaycanda at-eşşək ətinin satışının qoyun və mal ətindən sonrakı yerdə qərarlaşdığını söyləyə bilərlər. Çünki xəbər saytlarında tez-tez Bakıya gətirilən və çəkisi tonlarla olan at-eşşək ətinin saxlanılması haqda məlumatlar yer alır. Bəs hüquq-mühafizə orqanlarının diqqətindən yayınan və piştaxtalara çıxan, əhaliyə satılan belə ətlərin gətirdiyi gəlir nə qədərdir? Aydındır ki, söhbət milyonlarla manatdan gedir və belə dövriyyənin varlığı nazirliklərdə əyləşənlərin diqqətindən kənar deyil. Odur ki, at-eşşək əti biznesi çiçəklənməkdədir. Gəncədən Moldovaya göndəriləcək at-eşşək ətinin Azərbaycanın müxtəlif rayonlarındakı bazarlara ayaq açmayacağı da böyük sual altındadır.

Bu xəbərdən sonra Moldova ət bazarında qiymətləri də araşdırdıq. Məlum oldu ki, bu gün Moldova paytaxtı Kişinyovda mal ətinin 1 kiloqramı 6 manatdan bir qədər baha, konkret olaraq 6 manat 20 qəpikdir. Moldovanın pul vahidində desək, 1 kiloqram ət 70 leydir. Moldovada at ətinə maraq o qədər də çox deyil. Azərbaycanın at əti idxalçısı kimi məhz Moldovanını seçməsi də maraq doğurur. Çünki bu ölkədə at ətinə maraq o qədər də böyük deyil. Rusiyada isə əksinə, ildən-ilə at ətinə tələbat artır. Məsələn, 2016-cı ildə Rusiyada ət ətinə olan tələbatın yalnız 25 faizi ödənilib. Rusiyalı mütəxəssislər at ətinə tələbatın qiymətlə əlaqəli artdığı qənaətindədirlər. Mal ətinin kiloqramı istehsalçıya 170-180 rubla başa gəlirsə, at-eşşək ətinin maya dəyəri 20 rublu aşmır.

Mal-qaranın gündəlik yem təminatının nəzarətdə saxlanılmasına xərclənən pulların təxminən 15-20 faizi at-eşşək təsərrüfatının saxlanılması üçün kifayət edir.

Maraqlı mənzərə üzə çıxır. Azərbaycanda təqaüdçülərin 150-200 manat təqaüd aldıqları bir vaxtda, mal ətinin qiyməti 11-12 manata qədər artıb. Belə bir vaxtda ölkədə maya dəyəri qəpik-quruş olan at-eşşək ətinin kəsimi, tədarükü məntəqəsinin yaradılması təsadüfidir?

Moldovada mal əti 6 manatdırsa, Azərbaycan mənşəli at ətini hansı məntiqlə orada 16 dollara satacaqlar? Həmin ətin Moldovaya daşınması, soyuducularla saxlanması, əti satanların xərclərini də bura əlavə etsək, çoxlu suallar ortaya çıxır. Azərbaycan mənşəli at ətinin Moldovaya gedib çıxacağına böyük şübhələr yaranır.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Yeni ilə özəl endirim, yoxsa artım kampaniyaları?




## Eyyub Hüseynov: “Köhnə malları təzə adı altında satırlar...”

**Yeni il qabağı bir sıra mağazalarda endirim kampaniyaları başlayıb. Bu kampaniyalar daha gözəgəlimli şəkildə ən çox məişət avadanlıqları, mebellər satılan mağazalardadır. Hər gün bu barədə telefonlarımıza müxtəlif mesajlar daxil olur. Həmin mesajlardakı endirimləri görüb sevinən alıcılar mağazaya gedəndə isə tam başqa mənzərə ilə üzləşirlər.**

Şirniklədirici endirim kampaniyalarının bəzilərinə diqqət etsək, əslində bunun endirim olmadığını görərik. El dili ilə desək, qiymətləri 100 faiz qaldırıb sonra 50 faiz endirirlər ki, bu da əslində həmin malın qiymətində endirimin olmadığını, əksinə, bahalaşma olduğunu deməyə əsas verir. Üstəlik, endirimə düşən malların əslində elə də vacib və zəruri mallar olmadığı və ya köhnə mallar olduğu üzə çıxır.

Bu cür endirim kampaniyası gedən mağazalardan biri də “Music Gallery”dir. Bu mağaza öncə endirim kampaniyasını ad günü münasibətilə edib. Bununla bağlı bəlkə də bir çoxlarının telefonuna “3-4 dekabr Music Gallery ad günü münasibətilə möhtəşəm endirimlərə dəvət edir! Gorenje çaydan cəmi 19 AZN və 81 sm rəqəmsal HD TV 299 manat” kimi mesaj daxil olub. Bu cür mesajlardan biri də bizim əməkdaşımızın telefonuna gəlib və o, kampaniyadan yararlanmaq üçün “Music Gallery”ə üz tutub. Lakin televizor almaq üçün həmin mağazaya müraciət edəndə ona kampaniyanın bitdiyini deyiblər. Halbuki mağazaya müraciət edərkən kampaniya müddəti hələ başa çatmayıbmış.

Hazırda da “Music Gallery”də yeni endirim kampaniyası var. Ancaq bu mağazaya baş çəkdikdə endirimlərin əslində yeni model mallara yox, köhnə məhsullara aid olduğunu gördük. Müqayisə üçün deyək ki, endirim olsa belə, bu mallar öz qiymətindən dəfələrlə baha satılır. Məsələn, Gorenje BM 6240SY2B markalı mikrodalğalı soba “Music Gallery”də 819 manat 90 qəpiyə, “Kontakt Home”da isə eyni məhsul 699 manat 90 qəpiyə satılır. Göründüyü kimi, hər iki eyni məhsulun qiymət fərqi



120 manatdır. “Kontakt Home”da da endirim kampaniyasıdır. 2017 manatadək endirim adı ilə keçirilən kampaniyaya görə məhsulu nağd alana 10 manatdan 2350 manatadək endirim elan edilir. Məsələn, 1069 manat 90 qəpiyə “Samsung” markalı paltar yuyan maşını nağd alana 160 manat endirim edilir. Ancaq endirim olan mağazaların heç birində kredit şərtlərinə dair bir yenilik, faizlərin aşağı salınması prosesi baş vermir. Misal üçün, siz 229 manat 90 qəpiyə Hoffmann AI8689 markalı ətçəkən alsanız, 149 manata, ancaq kreditlə alsanız, 229 manat 90 qəpiyə alacaq, üstəlik, məhsulun rəsmiləşdirilməsi üçün bu qiymətin üzərinə 5 faiz xidmət haqqı da əlavə olunacaq. “Kontakt Home”dan də şikayətlər kifayət qədərdir. Alıcılardan birinin dediyinə görə, mağaza endirim kampaniyalarını illərdir qalıb satılmayan, köhnə mallara şamil edir.

Son zamanlar ucuzluğu ilə hər kəsin diqqətini çəkən digər mağazaya “Maxi.az”a da baş çəkdik. "Maxi.az"da da dekabrın 2-dən dekabrın 21-dək dövrü əhatə edən kampaniya nəzərdə tutulub. Buradakı kampaniyanın adı “Ucuz tapsan 110 % fərqini geri apar” adlanır. Aksiya zamanı “Maxi.az” mağazasında alış-veriş edən və ya planlaşdıran şəxs rəqib mağazalarda daha ucuz qiymət gördükdə qiymətin fərqini 110 % həcmində Bonus Plus kartına bonus şəklində qazanmaq imkanı var. Qeyd edək ki, bir sıra mebel mağazalarında da endirimlər var.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu kimi halları istehlakçının hüquqlarının pozulması adlandırdı:** “Bazar iqtisadiyyatı şəraitində istənilən dükan istənilən malı istədiyi qiymətə sata bilər. Buna heç bir məhdudiyyət yoxdur. Hökumətin səhv siyasəti var ki, hökumətin tənzimləmədiyi malların qiymətinə müdaxilə edirlər. Məsəl üçün, Kənd Təsərrüfatı Nazirliyi kartofun, soğanın, çörəyin qiymətini müəyyən edir ki, bunların hamısı anormal haldır. Onu da qeyd edim ki, bu il ərzində ən çox şikayət ”Kontakt Home" ticarət şəbəkəsindən gəlib. “Music Gallery” təxminən yeganə məişət texnikası satan mağazadır ki, istehlakçılara kredit adı altında şişirdilmiş mal satışını heyata keçirmir. Yəni kredit adı altında nisyə mal satışını guya həyata keçirir. Ən azından “Music Gallery” istehlakçıların bu cür aldadılması faktından uzaqdır. “Kontakt Home” və digər mağazalar şəbəkəsində kredit adı altında malları 40-50 faiz yüksək qiymətə satırlar. Üstəlik, “Kontakt Home” haqda bizə məlumat gəlib ki, köhnə malları təzə mal adı altında satırlar. O ki qaldı endirim kampaniyalarına, əgər “Music Gallery” endirim kampaniyasında yalnız köhnə malları endirimə saldıqlarını elan edirlərsə, öncədən istehlakçıya bu barədə məlumat verirlərsə, bu normaldır. Əgər istehlakçı ora gələndən sonra bunu başa düşürsə, bu, istehlakçı hüquqlarının pozulmasıdır. İstehlakçıların hüququ var ki, endirim kampaniyasında aldıqları malları malın zavod nöqsanları olarsa, onu 14 gün müddətində geri qaytarsın və ya dəyişsin. Əgər mal istehlakçının tələbini ödəmirsə, endirim kampaniyasında da istehlakçı malı 14 gün ərzində dəyişmək, dəyişməyə mal olmasa qaytarmaq hüququna malikdir”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
Son səhifə
N 275 (6596) 10 dekabr 2016



## Yaş fərqi sevgi münasibətlərini baltalayır

**Sevginin yaşının olmadığı və sevgidə yaş fərqinin əhəmiyyət daşımadığı fikrinə inananlar Virciniya Universitetinin araşdırmaçıları tərəfindən haqsız çıxarılıb. Belə ki, mütəxəssislər əslində sevgidə yaş fərqinin böyük əhəmiyyət daşıdığını iddia edirlər.**

"The Daily Beast" xəbər verir ki, yaşları uyğun olmayan cütlüklərə diqqətə alınması lazım olan bir sıra məsləhətlər verilib. Mütəxəssislərin fikrincə, sevginin yaşı olmasa da, sevmək hər yaşda mümkün olsa da, tərəflər arasında yaş fərqi münasibətlərin ömrünə birbaşa təsir edən faktordur. Qadınlar yaşca özlərindən daha gənc sevgililəri tərəfindən tərk edilmək qorxusu ilə yaşadıqlarından bu tip münasibətlərdə gərginliklər və ayrılıqlar çox olur. Bu, həmyaşıd və yaş fərqi 1-2 il olan cütlüklər üçün də keçərlidir. Yaşca çox kiçik olan qadın tərəfindən bəyənilməmək və aldadılmaq qorxusu isə kişiləri ən çox narahat edən səbəblərdir.

Hətta evlilik belə kişiləri bu qorxudan xilas edə bilmir. Mütəxəssislərə görə, tərəflər arasında yaş fərqi ən çox 10 il olmalıdır. Daha çox yaş fərqinin isə daha böyük problemləri olur. Aralarında 15-20 yaş fərqi olan cütlüklər ayrı mədəni etiketləri və ictimai tələbləri olan dövrlərdə doğulur və böyüyürlər. Tərbiyə formaları fərqli olan insanların isə bütünlükdə dünyagörüşləri, həyat tərzləri fərqli olur. Məsələn, 60 yaşlı kişi artıq ömrün sonlarını düşünərkən, 45 yaşlı xanımı özünü həyatın baharında hiss edir. Digər bir mənfi cəhət isə yaşca çox böyük olanın fiziki olaraq ağırlaşmasıdır. 50 yaşlı kişi evdə sakit və rahat saatlar keçirmək istəyərkən, 35 yaşlı xanımı evdən kənar əyləncələrə meyil edə və xoşbəxtliyi kənarda axtara bilir.

# Uşağınız tərsdirsə, sevinin

**Bir qrup psixoloq geniş əhatəli tədqiqat apararaq sübut edib ki, böyüklərlə höcətləşən tərs uşaqlar gələcəkdə uğurlu olur, demək olar, həmişə öz məqsədlərinə çatırlar.**



Elmi müşahidələr qırx il ərzində aparılıb. Alimlər uşaq inadkarlığının onların gələcək həyatına təsir dərəcəsini müəyyən etmək üçün nəzərdə tutduqları tədqiqatın birinci mərhələsini həyata keçiriblər. Tədqiqatda 700 uşaq iştirak edib. Bunun üçün valideynlərinə qarşı çıxan inadkar məktəblilər seçilib. Uzun illər keçəndən sonra psixoloqlar onların maddi durumu ilə maraqlanıblar. Nəticədə məlum olub ki, inadkar adamlar çox vaxt təhsildə uğur qazanır, onların karyeraları sürətlə inkişaf edir və həyatda bir çox digər nailiyyətlərə imza atırlar.

# Çox sevgi insanı "zəhərləyirmiş"



**Psixoloqlar sübut edib ki, həddindən artıq sevgi insanları asanlıqla "zəhərləyə" bilir. Bu isə birbaşa olaraq insanın ruhuna təsir etdiyi üçün tez zamanda hansısa dərmanlarla sağalmaq mümkün deyil.**

Üsküdar Universitetinin psixoloqu Zehra Erol sevgi zəhərlənməsinin insan psixologiyasında kifayət qədər ciddi fəsadlar yaratdığını bildirir və sevgililəri bu məsələdə xüsusilə diqqətli olmağa çağırır.

Psixoloqların sözlərinə görə, qarşısındakı insana həddindən çox bağlanan, sevən insan əsas diqqətini sevgilisinə münasibətə ayırdığı üçün digər mövzular barəsində sağlam düşünə bilmir. Bu zaman sevən şəxsin ovqatı da birbaşa olaraq qarşısındakı şəxsin ona göstərdiyi münasibətdən, diqqətdən asılı olaraq dəyişir.

Gün ərzində sevgilisindən xoş söz eşitməyən, diqqət görməyən şəxslər ətrafdakılarla daha əsəbi davranırlar.

Əksər hallarda isə bir tərəfin digərindən daha çox sevdiyini, daha diqqətcil olduğunu nəzərə alsaq, bu zaman tərəflərin gözləntiləri münasibətin daha təhlükəli vəziyyət almasına səbəb olur. Çünki qarşısındakına nisbətən sevgilisinə daha çox diqqət göstərdiyini *(ona daha çox zəng etdiyini, xoş sözlər söylədiyini)* düşünən insan bu diqqəti qarşı tərəfdən görmədiyi üçün tez-tez mübahisə yaratmağa başlayır. Elə bu "xəstəlik" də sonrakı mərhələlərdə daha şiddətli forma alır. Qarşısındakının onu yetərincə sevmədiyini düşünən şəxs həm öz əhvalını, dolayısıyla bütün gününü korlayır, həm də öz davranışları, hərəkətləri ilə həmin insanın ovqatına, psixologiyasına təsir etməyə başlayır. Mütəxəssislər bu xəstəlikdən qorunmaq istəyən şəxslərə qarşılarındakı şəxsi heç bir gözləntisiz sevməyi, bununla da münasibətlərini kabusa çevirməməyi məsləhət görürlər.

## Qoroskop (10 dekabr)





**QOÇ** - Fəaliyyət istiqamətində vaxtınızı çox itirməyin. Onsuz da nəzərdə tutulan nəticəni əldə edə bilməyəcəksiniz. Buraxdığınız səhvləri etiraf etməyi və bağışlamağı bacarmalısınız.


**BUĞA** - Neçə gündən bəri verdiyimiz tövsiyələrə əməl etmisinizsə, təxminən saat 12-dən başlayaraq iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Özünüzə təzə geyim alın.


**ƏKİZLƏR** - Ulduzlar ovqatınızı yüksəltmək üçün əllərindən gələni edəcəklər. Amma heç olmasa, özünüz də buna azacıq cəhd etməlisiniz. İnsanlara qarşı gülərüz münasibət göstərin.


**XƏRÇƏNG** - Ətrafınızda olan xeyirxah insanların qədrini bilin. Onsuz da həyatda təkbaşına çox şeyə nail ola bilmirsiniz. Yersiz ittihamlara, dedi-qoduya əhəmiyyət verməklə səviyyənizi endirməyin.


**ŞİR** - Xurafatçıların "nəhs gün" adlandırdığı bu təqvimdə çoxdan görmədiyiniz dost və qohumlarınıza baş çəkin. Nahar ərəfəsində aldanma ehtimalınız olduğu üçün bir qədər tədbirli olun.


**QIZ** - Bu təqvimin mahiyyətini romantik məcraya yönəltməklə ümumi gərginliyinizi azalda bilərsiniz. Əks cinsin nümayəndələri ilə mehriban davranın. Özünüzü zəhərlənmədən gözləyin.


**TƏRƏZİ** - Hiss olunur ki, bu gün ümumi gərginlik ovqatınıza hakim olacaq. Elə isə bütün gücünüzü toparlayıb neqativ hallara qarşı müqavimət göstərin. Enerjinizi boş yerə xərcləməyin.


**ƏQRƏB** - Günün ümumi görüntüsü qarşıdurmalarla müşayiət olunacaq. Nə qədər çətin olsa da, əsəblərinizi cilovlamağa çalışın. Bunu bacarsanız, axşama yaxın ovqatınız yüksələ bilər.


**OXATAN** - "Nəhs gün" anlamına ciddi yanaşmayın. Əksinə, bu gün uğurlu məqamlar yaşayacaqsınız. Maddi çətinliyi özünüzə dərd etməyin. Axşam çoxdan görüşmədiyiniz yaxınlarınıza baş çəkin.


**OĞLAQ** - Bu gün yeganə probleminiz səhhətinizlə bağlı ola bilər. Odur ki, əsəbi situasiyalardan, daxili soyuqdəymədən qorunmalısınız. Qalan məsələlərdə isə ciddi probleminiz olmayacaq.


**SUTÖKƏN** - Dünyanı düzəltmək fikrindən vaz keçin. Özünüzü və ətrafınızdakıları ədalət müstəvisinə çəkə bilsəniz, bu da böyük işdir. Nəzərə alın ki, insanları inandırmaq qabiliyyətiniz aşağıdır.


**BALIQLAR** - Riskli işlərə, nəticəsinə əmin olmadığınız sövdələşmələrə girişməyin. Daha çox evdə, ailə üzvlərinizlə, dostlarınızla bir yerdə olmağa çalışın. Qonaq getmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dar şalvar qadınlara varikoz qazandırır



**Dar şalvarlar neçə ildir ki, modanın əhəmiyyətli detallarından birinə çevrilib. Qızların çox cazibədar göstərdiyi üçün onlar dar şalvarları geyinməyi çox sevir. Ancaq həkimlər sinir sıxışmasına səbəb olduğu üçün bu şalvarları geyinməyin tövsiyə etmirlər. Budun ön yan hissələrinin duyğusunu əhatə edən sinirin dar şalvarlar tərəfindən sıxışdırılması nəticəsində bu bölgədə ağrı və uyuşma ola bilər.**

Eyni zamanda ayaq və bud bölgəsini sıxan çox dar şalvarlar damarları sıxaraq qan dövranının ləngiməsinə səbəb olur. Bu vəziyyət uzunmüddətli varikoz və sellülit kimi problemlərə yol açır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 4.750